RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 188 (8504) CÜMƏ AXŞAMI, 17 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev yeni çağırışlara uyğun iqtisadi baza formalaşdırır

## Prezidentin mütərəqqi islahatları postpandemiya dövründə Azərbaycanın hərtərəfli yüksəlişi üçün yol xəritəsi olacaq

**Qlobal böhran səbəbindən dünya iqtisadiyyatında potensial artım templərinin aşağı düşməsi, ilin əvvəlindən başlanan koronavirus pandemiyası və onunla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni strateji çağırışlar müəyyənləşdirib.**
**Bu səbəbdən də həyata keçirdiyi islahatlarla Azərbaycanın uzunmüddətli dövr üçün dayanıqlı inkişafını təmin edən Prezident İlham Əliyev yeni çağırışları şərtləndirən addımlar atır, mühüm qərarlar qəbul edir. Ən islahatçı Prezidentin bu gün reallaşdırdığı iqtisadi islahatlar postpandemiya dövründə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsini və milli iqtisadiyyatın müasirləşdirilməsini hədəfləyən strategiyanın formalaşdırılmasını təmin edir.**

### İqtisadiyyatın tənəzzülündən yüksəliş mərhələsinə keçidi şərtləndirən islahatlar

Hazırkı əlverişsiz qlobal mühitdə əsas məqsəd isə son illər ərzində əldə edilmiş sosial-iqtisadi rifah səviyyəsinin aşağı düşməsinə imkan verməmək və postpandemiya dövründə iqtisadiyyatın artım tempinin yüksəldilməsi üçün yeni mexanizmlər yaratmaqdır.

Təbii ki, dünya iqtisadiyyatını son 8 ayda iflic duruma salan qlobal böhran bütün ölkələrin iqtisadi durumuna mənfi təsirlərini bu gün də göstərməkdədir. Ancaq etiraf etməliyik ki, böyük dövlətlərin iqtisadiyyatındakı tənəzzül 20-31 faiz həddinə yüksəldiyi halda, Azərbaycanda bu rəqəm cəmi 2,8 faizdir. Ancaq onu da vurğulamalıyıq ki, Azərbaycan pandemiya ilə mübarizə tədbirlərini yalnız öz iqtisadi imkanları çərçivəsində reallaşdırıb. Yəni bəzi ölkələr kimi nə beynəlxalq təşkilatlardan ianə alıb, nə də hansısa dövlətlərdən yardım istəyib. Dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər, vətəndaş sağlamlığının qorunması istiqamətində atılan addımlar, insanların sosial-rifah halının yaxşılaşdırılması istiqamətində qəbul edilən dəstək proqramları digər ölkələr üçün nümunəvi xarakter daşıyıb. Məhz bu tədbirlərin nəticəsidir ki, bu gün ölkəmizdə koronavirusla mübarizədə müsbət dinamika müşahidə olunur.

Normal həyata qayıdış isə dövlətin postpandemiya dövrü üçün yeni çağırışlara adekvat addımlar atmasına real zəmin yaradır. Buna görə də Prezident İlham Əliyev hər zaman olduğu kimi, uzaqgörən siyasəti ilə növbəti ildə iqtisadiyyatın hazırkı tənəzzüldən yüksəliş mərhələsinə qədəm qoyması üçün mütərəqqi islahatlarını reallaşdırmağa başlayıb.

Prezidentin iqtisadiyyatın liberallaşdırılması istiqamətində atdığı addımlar, o cümlədən Azərbaycan İnvestisiya Holdinqinin, İqtisadi Şuranın yaradılması islahatların tərkib hissəsidir.

Dövlət başçısı hesab edir ki, əldə edilmiş sosial-iqtisadi göstəricilərin qlobal mühitdə dayanıqlı saxlanılması və daha da yüksəldilməsi üçün milli iqtisadiyyatımızın beynəlxalq rəqabət qabiliyyəti gücləndirilməli, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunmalıdır. Bunun üçün isə milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək tələb olunur.

Qlobal böhran göstərdi ki, daha çevik, operativ qərarların qəbul olunması, korporativ idarəçilikdə yeniliklərin tətbiq edilməsi və bəzən mərkəzləşdirilmiş siyasətə üstünlüyün verilməsi yarana biləcək daha böyük problemlərin qarşısının alınmasında öz faydasını verə bilər.

*Ardı 3-cü səh.*

# Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir

## Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tarixi-mədəni irsə və çoxəsrlik tolerantlıq ənənələrinə malik Azərbaycanda tarix boyu yəhudilər digər xalqların və dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşamışlar. Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir.

Cəmiyyətdə demokratik, hüquqi prinsiplərə əsaslanan birgəyaşayışa, yüksək dözümlülük mühitinin, multikultural dəyərlərin təşviqinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti bütün etnik azlıqların, o cümlədən yəhudi icmasının mədəni-mənəvi dəyərlərinin qorunub-saxlanılmasına, dil və mədəniyyətinin inkişafına böyük diqqət və qayğıyla yanaşır.

Təqdirəlayiq haldır ki, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal iştirak edən yəhudi əsilli həmvətənlərimiz, harada yaşamalarından asılı olmayaraq, Azərbaycana sevgi və sədaqətlərini daim nümayiş etdirir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verirlər.

Əziz dostlar!

Xeyirxahlığı, mənəvi dirçəlişi və yeni həyatı təcəssüm etdirən Roş-Ha-Şana münasibətilə bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2020-ci il*

# V.Ə.Axundovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının xüsusi mühafizə orqanlarında çoxillik səmərəli fəaliyyətinə görə Vaqif Əlibala oğlu Axundov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2020-ci il*

# F.T.Əhmədovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin inkişafında xidmətlərinə görə Fərhad Teymur oğlu Əhmədov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2020-ci il*

# Peşə təhsili iqtisadi inkişafda mühüm məsələdir

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində Peşə Təhsil Mərkəzinin yaradılması da bunu təsdiqləyir

**Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın, həmçinin inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında mühüm əhəmiyyət daşıyır.**

Yerli və beynəlxalq təşkilatlar, həmçinin ölkələrin iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirənlər, eyni zamanda, sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün müasir peşə təhsili sisteminin bərpasına xüsusi önəm verirlər.

Bu mənada respublikamızda ilk dəfə sənaye parkı ərazisində peşə təhsili müəssisəsinin yaradılması da təsadüfi deyil. Prezident İlham Əliyev "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində yaradılan Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

*Ardı 4-cü səh.*

# Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı liderliyini əldən vermir

**Müasir dünyada müxtəlif yönümlü elektron ticarət şəbəkələri çoxdandır ki, mövcuddur. Bu virtual ticarət meydançalarında çoxsaylı xidmətlərin, məhsulların istehsalçıları istehlakçılarla birləşmək, bizneslərini daha sürətlə faydalı məcraya yönəltmək imkanı qazanırlar.**

Məlumdur ki, koronavirus pandemiyası dünya ticarətində ciddi fəsadlara səbəb olmuş, alıcılarla istehsalçılar arasında əlaqələr zəifləmiş, ticarət və xidmət sektoru böyük itkilərlə üzləşmişdir. Bununla qlobal ticarətdə və biznesdə yeni normaların və qaydaların gündəmə gəlməsinə zərurət yaranmışdır. Yeni norma isə mahiyyət etibarilə dəyişikliklər toplusunun kütləvi qəbulu və istifadəsi deməkdir. Bu qaydalara əsasən, biznes fəaliyyətini davam etdirmək üçün rəqəmsal münasibətlərin daha geniş tətbiqinə üstünlük verməli olmuşdur.

*Ardı 4-cü səh.*

# Ermənilərin və Ermənistanın gürcülərə və Gürcüstana qarşı xəyanətləri

**Bir neçə gün əvvəl BMT Baş Assambleyasında Gürcüstan tərəfindən irəli sürülən "Gürcüstanın Abxaziya və Sxinvali-Cənubi Osetiya regionundan olan qaçqın və məcburi köçkünlərin statusu" adlı qətnamə layihəsi səsverməyə çıxarılaraq qəbul edilib. İşğalçı Ermənistan Gürcüstan ərazisindən olan qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış hüququnu tanıyan qətnaməyə dair keçirilən səsverməyə qatılmayıb. Qatılsaydı belə, Gürcüstanın maraqlarının müdafiəsinə yönəlmiş sənədin lehinə səs verə bilməzdi, çünki əlaltısı olduğu Rusiya Ermənistanı cəzalandıra bilərdi. Əleyhinə səs verdikdə isə gürcüləri daha da hiddətləndirərdi. Ermənistan guya hiyləgərlik işlətdi. Amma əslində bu dəfə də gürcü xalqına və Gürcüstana növbəti dəfə xəyanət etdi.**

Bəziləri Ermənistanın bu hərəkətini təəccüblə qarşılayır. Hesab edirəm ki, burada təəccüblü heç bir şey yoxdur! Çünki ermənilər və Ermənistan həmişə gürcülərə və Gürcüstana xəyanət edib, ona arxadan zərbə vurub. Səsvermədə iştirak etməmək Gürcüstana edilən xəyanətlərin bəlkə də ən kiçiyidir. Bəs gürcü-erməni münasibətlərində ermənilərin və Ermənistanın gürcülərə və Gürcüstana hansı xəyanətləri olub?

*Ardı 5-ci səh.*



# Çin növbəti dəfə Avropaya yüklərin daşınmasında trans-Xəzər marşrutunu seçdi

**Ölkəmizdə icra edilən nəhəng infrastruktur layihələrinin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi yeni fakt deyil. Həmin qurumlar dəfələrlə öz hesabatlarında Azərbaycanda bu istiqamətdə görülən işlərin təkcə ölkəmiz deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər.**

Məhz bu tədbirlər sayəsində ölkəmiz hazırda dünyanın mühüm nəqliyyat dəhlizlərinin qovşağına çevrilib. İndi Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində gedən əsas yollar Azərbaycandan keçir.

Xəbər verildiyi kimi, Çinin şərqindəki Cician vilayətinin Cinhua şəhərindən sentyabrın 10-da yola salınan yük qatarının 15-18 gün sonra Bakıya çatması planlaşdırılıb. Sənaye avadanlığı və məişət əşyaları da daxil 100 konteynerdən ibarət olan qatar Qazaxıstanın Xəzər dənizi sahilindəki Aktau limanına çatdıqdan sonra oradan bərə ilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına yola salınacaq.

*Ardı 6-cı səh.*

# Mübarizə öz bəhrəsini verir

## Əldə olunmuş uğurlu nəticələr karantin rejiminin yumşaldılmasını labüd edib

**Yeni tip koronavirus (COVID-19) Yer kürəsində sürətlə yayılmaqda davam edir. Dünyada bu təhlükəli infeksiyaya yoluxanların sayı 30 milyona, ölənlərin sayı isə 940 minə çatır. ABŞ hələ də ən yüksək yoluxma və ölüm sayına görə liderliyini qorumaqdadır. Növbəti sıralarda müvafiq olaraq Hindistan, Braziliya, Rusiya, Peru və Kolumbiya qərarlaşıb.**

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə oktyabr və noyabr aylarında Avropada COVID-19-la bağlı gündəlik ölüm sayında artım olacağını proqnozlaşdırıb. ÜST-ün Avropa üzrə regional direktoru Hans Kluqe bildirib ki, vəziyyət daha da çətinləşəcək, yoluxma hallarındakı artım günlük ölümlərin də artımına səbəb olacaq: "Anlayıram ki, indiki məqamda ölkələr pis xəbər eşitmək istəmir. Mən pozitiv mesaj göndərmək istərdim ki, bu pandemiya bitəcək.

*Ardı 6-cı səh.*

### Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 sentyabr 2020-ci il*

# Bakının işğaldan azad edilməsinin 102-ci ildönümü Türkiyə KİV-nin diqqətindədir

**Bakının işğaldan azad olunmasının 102-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı telefon danışığı, eləcə də bu münasibəti ilə dövlət başçılarının bir-birinə yazdıqları məktub qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub.**










AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan münasibətlərinin qardaşlıq nümunəsi və örnək kimi təqdim edildiyi məqalələr və reportajlar "Anadolu", İHA, DHA agentlikləri, TRT HABER, A HABER, NTV televiziya kanalları, eləcə də "Star", "Yeni çağ", "Yeni şafaq", "Milliyet" və digər qəzetlər tərəfindən yayılıb.

Qeyd edək ki, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Prezident Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və digər vəzifəli şəxslər, həmçinin Milli Müdafiə Nazirliyi sosial şəbəkə hesablarında Bakının düşmən işğalından qurtuluşunun 102-ci ildönümü münasibətilə təbriklər paylaşıblar. Paylaşımlarda Azərbaycan-Türkiyə qardaşlığı ilə bağlı fikirlər əks olunub.

# Həyata keçirilən mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş siyasətin uğurlu və məntiqi nəticəsidir





Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyüməlerinə diqqət və qayğı göstərilir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir.

Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

Sentyabrın 16-da Bakının Xəzər rayonunun Zirə qəsəbəsinin Qışlaq yaşayış sahəsində Heydər Əliyev Fondunun dəstəyi ilə tikilmiş 2 saylı uşaq bağçasının açılışı olub. Tədbirdə Heydər Əliyev Fondunun, Xəzər Rayon İcra Hakimiyyətinin, "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, uşaq bağçası Heydər Əliyev Fondu tərəfindən zəruri mebel və avadanlıqlarla təchiz edilib.

Uşaq bağçasının direktoru İlahə Rəsulova məlumat verib ki, Heydər Əliyev Fondu tərəfindən 60 yerlik uşaq bağçasının inşasına 2019-cu ilin dekabrında başlanılıb, tikinti işləri 2020-ci ilin iyul ayında yekunlaşıb. Bir mərtəbədən ibarət bağçanın ümumi ərazisi 0.0894 hektardır. Bağçanın ərazisində yeraltı içməli su anbarı, nasosxana və qazanxana inşa edilib, bina daimi su, elektrik və istilik sistemləri ilə təmin edilib.

Bildirilib ki, uşaq bağçasının binası 2 qrup otağından ibarətdir. Ərazidə oyun meydançası da var. Məşğələ və yataq otaqları hər cür avadanlıq və ləvazimatlarla təmin edilib. Pandemiya ilə əlaqədar olaraq bağçada bütün gigiyenik qaydalara ciddi riayət olunur.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, əraziyə daş örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib, işıqlandırma sistemləri quraşdırılıb. Bağçaətrafı yollar abadlaşdırılıb.

❖ ❖ ❖

Sentyabrın 16-da Heydər Əliyev Fondu tərəfindən Xəzər rayonunun Binə qəsəbəsində inşa olunmuş 218 saylı körpələr evi-uşaq bağçasının da açılışı olub. Heydər Əliyev Fondunun, Xəzər Rayon İcra Hakimiyyətinin, "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə körpələr evi-uşaq bağçasının direktoru Ülviyyə Quliyeva məlumat verib ki, ikimərtəbəli binanın məşğələ və yataq otaqları zəruri mebel və avadanlıqlarla təchiz olunub.





Qeyd edilib ki, 80 yerlik uşaq bağçasının binası 4 qrup otağından ibarətdir. Ərazidə oyun meydançası da var. Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, əraziyə daş örtüyü döşənib, dekorativ və kol ağacları əkilib, işıqlandırma sistemləri quraşdırılıb. Bağçakənarı yollara asfalt örtüyü salınıb.

# Heydər Əliyev Fondunun ölkə təhsilinə növbəti töhfəsi







**2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində yeni inşa və əsaslı təmir olunan məktəb, eləcə də məktəbəqədər təhsil müəssisələri istifadəyə verilir. AZƏRTAC xəbər verir ki, Xaçmaz, Saatlı, Kürdəmir, Şamaxı, Lerik, Astara və Masallı rayonlarında yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələri ilə tanışlıq olub.**

### Xaçmaz

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilən Xaçmaz şəhər Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbi yeni tədris ilində istifadəyə verilib.

Tanışlıq zamanı bildirilib ki, Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəb 1976-cı ildən fəaliyyətə başlayıb. Məktəb binası yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən 1176 şagird yerlik binanın əsaslı təmiri həyata keçirilib. Tədris ocağı zəruri mebel və avadanlıqla, fənn kabinetləri ilə təchiz edilib. Təhsil müəssisəsində müasir istilik və işıqlandırma sistemi də qurulub. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri inşa olunub.

Məktəb binasında 55 sinif otağı, fizika, kimya, biologiya kabinetləri, fənn laboratoriyaları, 2 informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı və açıq idman meydançası var. Məktəbin həyətinə asfalt döşənib, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Bundan başqa, məktəb ərazisində Qarabağ döyüşlərində şəhid olan məzunların xatirə lövhəsi yaradılıb, iki idman meydançası salınıb.

### Saatlı

Saatlının ucqar yaşayış məntəqəsi olan Orta Muğan kəndində 432 şagird yerlik yeni məktəb binası kollektivin istifadəsinə verilib. Təhsil ocağı Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilib.

Məktəbin direktoru Zakir Tağıyev bildirib ki, Orta Muğanda ilk dəfə 1930-cu ildə 4 illik siniflər üzrə tədrisə başlanılıb, 1958-ci ildə ümumi orta təhsil müəssisəsi yaradılıb. 1975-ci ildə inşa edilən məktəb binası isə tam orta məktəb kimi fəaliyyət göstərib. Son illər bina istismar müddətini başa vurduğu üçün tədrisdə bir sıra çətinliklər yaranırdı. Lakin yeni binanın inşası artıq bu çətin günləri geridə qoyub. Müasir standartlara uyğun inşa edilən binada bütün zəruri şərait yaradılıb.

432 şagird yerlik məktəb binası 2 mərtəbə və 3 blokdan ibarətdir. Binada 18 sinif otağı və fənn kabinələri, iclas və idman zalları, bufet var. Sinif otaqları və fənn kabinələri, zallar lazımi inventarlarla təmin edilib. Həmçinin məktəbin ərazisində stadion yaradılıb. Məktəbin həyətində abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb.

Məktəb direktoru qeyd edib ki, ucqar kənddə belə bir tədris binasının istifadəyə verilməsi ölkə təhsilinə, o cümlədən Salyanda tədrisin keyfiyyətinin yüksəldilməsinə göstərilən qayğının bariz nümunəsidir. O, həm kollektiv, həm də kənd sakinləri adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib. Yeni məktəb binasının inşası müəllim kollektivi ilə yanaşı, şagird və valideynləri də sevindirib.

Məktəbin şagirdi Mələk Xəlilzadə sevincini belə ifadə edib: "Məktəbimiz üçün yeni binanın tikilməsinə görə çox sevinirik. Bu, bizim üçün çox böyük bayram oldu. Sinif otaqlarımız işıqlı və genişdir, məktəbdə bütün şəraitimiz var. Çalışacağıq ki, bu gözəl məktəbdə əla qiymətlərlə oxuyaq".

Övladları məktəbdə təhsil alan kənd sakini Hüseyn Muxtəsimov isə köhnə binadakı çətinliklərin artıq arxada qaldığını vurğulayıb: "Ötən illərdə məktəbdə tədris zamanı çətinliklər olurdu. Dam örtüyü bərbad olan binanın işıqsız otaqlarında istilik sistemi olmadığı üçün müəllimlərlə birgə şagirdlər də əziyyət çəkirdi. Lakin indi çox gözəl məktəb binası tikilib. Bunun üçün ölkə rəhbərinə və Heydər Əliyev Fondunun prezidentinə təşəkkür edirik".

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri və rayon rəhbərliyi müəllim və şagird kollektivi ilə görüşüb. Yeni tədris ilində kollektivə uğurlar arzu edilib, məktəblilərə dərs ləvazimatları hədiyyə olunub.

### Kürdəmir

Kürdəmir şəhər H.Həsənov adına 7 saylı 40 yerlik körpələr evi-uşaq bağçasının yeni binası da sentyabrın 16-da qapılarını balacaların üzünə açıb.

Bildirilib ki, Kürdəmir şəhər 7 saylı körpələr evi-uşaq bağçası 1992-ci ildə inşa olunub. 140 yerlik nəzərdə tutulan bağçada tikinti işləri tam başa çatdırılmadığı üçün 40 yerlik olaraq fəaliyyət göstərmişdi. Bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçası inşa edilib. 40 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur.

Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.

### Şamaxı

Şamaxı rayonunun Quşçu kənd körpələr evi-uşaq bağçası da fəaliyyətə başlayıb. Şamaxıdan 27 kilometr məsafədə yerləşən Quşçu kəndi rayonun iri yaşayış məntəqələrindəndir. Hazırda kəndin 5148 nəfər əhalisi var. Heydər Əliyev Fondu tərəfindən inşa edilən yeni uşaq bağçası kənd sakinləri tərəfindən böyük sevinclə qarşılanıb.

Qeyd edək ki, Quşçu kənd körpələr evi-uşaq bağçası 1986-cı ildən sovxoz üçün inşa olunan, uşaq bağçasına uyğunlaşdırılan birmərtəbəli binada fəaliyyət göstərib. Bağçanın binası ötən ilin fevral ayında baş verən zəlzələ zamanı qəzalı vəziyyətə düşmüşdü. Elə həmin il Heydər Əliyev Fondu tərəfindən yeni uşaq bağçasının inşasına başlanıldı və tikinti bu ilin avqustunda başa çatdırıldı. 40 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, ayrıca tibb korpusu, camaşırxana, digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları, söhbətgahlar quraşdırılıb.

Bağçanın işçiləri, eləcə də valideynlər belə gözəl məkana görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Nəvəsi Muradı uşaq bağçasına gətirən Atlas Fətullayeva da bu işdə əziyyəti keçənlərə minnətdarlığını bildirərək deyib: "Sağ olsun Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun prezidenti, bizə belə bir hədiyyə etdi. Zəlzələdən sonra yararsız hala düşən bağçamız yenisi ilə əvəzləndi. Özü də əvvəlkindən qat-qat yaxşıdır. İndi körpələrimizdən tam arxayın ola bilərik. Bağçada hər cür şərait var".

### Lerik

Lerik rayonunun M.Qafarov adına Siyov kənd tam orta məktəbi 1923-cü ildə ibtidai məktəb kimi fəaliyyət göstərib. 1928-ci ildə məktəb üçün Akuşəpeşdə kəndində bina tikilib. 1933-cü ildə isə 7 illik məktəb kimi fəaliyyətə başlayıb, 1950-ci ildən orta məktəb statusu alıb. 1987-ci ildə Siyov kəndində fin tipli yeni məktəb binası tikilib və məktəb Siyov kəndinə köçürülüb.

Kənddə Heydər Əliyev Fondu tərəfindən yeni 132 şagird yerlik məktəb binasının inşasına 2019-cu ilin sonlarında başlanıb və tikinti işləri 2020-ci ilin iyul ayında yekunlaşıb. İkimərtəbəli bina iki korpusdan ibarətdir.

Məktəb zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında 11 sinif otağı, fizika, kimya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, yeməkxana, akt və idman zalları və açıq idman meydançası da var.

Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb. Siyov kənd tam orta məktəbinin istifadəyə verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub.

Bu kənddə fəaliyyət göstərən uşaq bağçası isə 1985-ci ildə kolxoz üçün inşa olunmuş, sonradan bir hissəsində Piran kənd ərazi icra nümayəndəliyi yerləşmiş binada 1989-cu ildən fəaliyyətə başlayıb. Bina ötən müddətdə istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən kənddə yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında başa çatıb.

İkimərtəbəli, 60 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları, söhbətgahlar quraşdırılıb.

### Astara

Astara rayonunun Ərçivan kənd körpələr evi-uşaq bağçası isə 1977-ci ildə sovxoz tərəfindən inşa olunmuş birmərtəbəli binada fəaliyyət göstərib. Bağçanın binası köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən körpələr evi-uşaq bağçasının yeni binasının inşası həyata keçirilib və 80 yerlik bina tikilib. Bağçada yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar var. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz olunub.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları quraşdırılıb.









### Masallı

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunan digər bağça isə Masallı rayonunun Səmidxan kəndində yerləşir.

Səmidxan kənd körpələr evi-uşaq bağçasının binası 1987-ci ildə inşa olunub. Binada müxtəlif vaxtlarda kitabxana, həkim məntəqəsi və müxtəlif təşkilatlar fəaliyyət göstərib. Sonradan bina istifadəyə yararsız vəziyyətə düşmüşdü. Əsaslı təmir işlərinə 2019-cu ilin sonlarında başlanılıb və bu ilin iyun ayında yekunlaşıb.

100 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, anbar, tibb otağı, camaşırxana və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.

Sakinlər ucqar kənddə bağça binasının əsaslı təmir olunmasına görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclası keçirilib



Sentyabrın 16-da Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin payız sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli əvvəlcə VI çağırış dövründə parlamentdə görülən işlərdən söz açıb. Bildirib ki, COVID-19 pandemiyası ilə əlaqədar bütün dünyada yaranmış ağır şəraitə baxmayaraq, Milli Məclis öz fəaliyyətini ən yüksək səviyyədə davam etdirib və qarşıya qoyulan tapşırıqlar layiqincə yerinə yetirilib. Həm ölkə daxilində, həm də beynəlxalq miqyasda deputatlarımız Azərbaycanın milli maraqları istiqamətində geniş fəaliyyət göstəriblər.

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə ciddi islahatlar həyata keçirilib, beynəlxalq əlaqələr genişləndirilib və hər bir deputat öz fəaliyyətini günün, bugünkü dünyanın tələbləri səviyyəsində qurub.

Komitə sədri Fəzail İbrahimli məlumat verib ki, bugünkü iclasın gündəliyinə 3 məsələ daxil edilib. Sonra o, 2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 15 məsələyə baxılıb. Ötən sessiyalar dövründə komitədə 5 qanun layihəsi müzakirə olunaraq parlamentin plenar iclasına tövsiyə edilib. Nəzərə çatdırıb ki, həmin qanun layihələrindən 4-ü üç oxunuşda (birinci, ikinci və üçüncü oxunuşlarda), 1-i isə bir oxunuşda müzakirədən keçib. Baxılan qanun layihələri Milli Məclisin iclaslarında qəbul edilib.

2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan 90 ərizə və məktuba, müxtəlif xarakterli digər sənədlərə, elektron poçt vasitəsilə gələn müraciətlərə komitədə baxılıb. 38 ərizə, müraciət və sənəd tədbir görülmək üçün aidiyyəti təşkilatlara göndərilib. Ərizələrin əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla telefon əlaqəsi saxlanılıb və qanun çərçivəsində məsələnin həllinə nail olunub. Komitədə vətəndaşların fərdi qəbuluna da xüsusi diqqət ayrılıb. Hesabat dövründə koronavirus pandemiyası, həmçinin iyul ayında Tovuz rayonu ilə sərhəddə Ermənistanın növbəti hərbi təxribatı ilə əlaqədar yaranmış vəziyyətlə bağlı seçicilərlə sıx əlaqə saxlanılıb, yerlərdə çoxsaylı görüşlər keçirilib.

Sessiyalar ərzində komitə sədri və üzvləri parlamentlərarası əlaqələr üzrə işçi qruplarla da onlayn qaydada müxtəlif görüşlər keçiriblər.

Məlumat dinlənildikdən sonra komitədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə komitə sədrinin müavini Sahib Alıyev, deputatlar Cavanşir Paşazadə, Azər Badamov, Ceyhun Məmmədov, Anar İsgəndərov rəy və təkliflərini bildiriblər. Yaz və növbədənkənar sessiyalar dövründə görülmüş işlər yüksək dəyərləndirilib. Hesabat məqbul sayılıb.

İclasda komitənin 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı təsdiqləndikdən sonra cari məsələlərə baxılıb, deputatların təklifləri dinlənilib.

Yekunda müzakirə olunan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# İlham Əliyev yeni çağırışlara uyğun iqtisadi baza formalaşdırır

*Əvvəli 1-ci səh.*

Buna görə də ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığının artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, idarəçilik modelinin təkmilləşdirilməsi və nəticədə dövlət büdcəsinin səmərəli istifadə olunmasını təmin etmək zərurəti yaranıb. Bu da, əlbəttə ki, müasir çağırışlar, yeni trendlər fonunda iqtisadiyyatın liberallaşdırılması nəticəsində reallaşa bilər.

Bir sözlə, İlham Əliyev qlobal böhran şəraitində həyata keçirdiyi struktur islahatları ilə iqtisadi və korporativ idarəetməni daha da modernləşdirir. Dövlət başçısı çevik, şəffaf, obyektiv informasiya sisteminə əsaslanan və ayrı-ayrı strukturları bir tam halında sinxronlaşdırmağı bacaran yeni idarəetmə modeli yaradır.

Bu da onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin möhkəm təməl üzərində formalaşdırdığı iqtisadi strategiyası böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatlarının həyata keçirilməsinə təkan verir.

## İstənilən böhranla mübarizə aparmağa qadir olan dövlət

Son 8 ayda Azərbaycanda reallaşan sosial-iqtisadi layihələrə nəzər yetirsək görərik ki, İlham Əliyev həm vətəndaş sağlamlığının qorunması, həm də sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm qərarlar qəbul edib, böyük layihələr reallaşdırıb. Bütün bunları isə dövlət öz imkanları hesabına həyata keçirib.

Yəni bu çətin dönəmdə Azərbaycan heç bir beynəlxalq təşkilatdan maliyyə yardımı almayıb. Dünya ölkələrinin əksəriyyəti maddi yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi halda, Azərbaycan heç kimdən yardım almadan, öz imkanları hesabına yaşayır. Hətta dövlətin xarici borcu da əksər ölkələrlə müqayisədə aşağı səviyyədədir.

Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin iqtisadi islahatları nəticəsində əldə edilən bazanın hesabına reallaşır. Dövlət başçısının söylədiyi kimi, bununla da Azərbaycan istənilən böhranla mübarizə aparmağa qadir olan dövlət olduğunu təsdiqləyir.

Pandemiya ilə mübarizə tədbirləri fonunda ölkə iqtisadiyyatında 8 ayda 2,8 faizlik azalma müşahidə olunsa da, qeyri-neft sektorundakı 1,6 faizlik artım sevindirici haldır. Çünki bu, digər ölkələrlə müqayisədə çox yaxşı göstəricidir. Həm də onu təsdiq edir ki, Azərbaycanda qeyri-neft sektoru qlobal böhran şəraitində də inkişafdadır.

İqtisadçılar ortamüddətli dövrdə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72,2 faizə, neft sektorunun payının isə 27,8 faizə bərabər olacağını proqnozlaşdırırlar. Qeyd edilir ki, neftin qiyməti 35 dollar olacağı halda ölkəmizdə ÜDM-in həcmi 2021-ci ildə 3 faiz, 40 dollar olacağı halda 3,4 faiz, 45 dollar olacağı təqdirdə isə 3,8 faiz artacaq. Proqnozlara görə, 2021-ci ildə ölkəmizdə ən sürətli inkişaf tempinə 35,7 faizlə turizm sektoru başçılıq edəcək. Daha sonra informasiya və rabitə (9 faiz), kənd təsərrüfatı (4,9 faiz) sektorlarının artımı gözlənilir.

Göründüyü kimi, postpandemiya dövrü üçün verilən proqnozlar nikbinlik yaradır. Bu, bir daha onu göstərir ki, İlham Əliyevin inkişaf konsepsiyası Azərbaycanın hərtərəfli yüksəlişi üçün yol xəritəsidir.

Ümumiyyətlə, İlham Əliyevin həyata keçirdiyi islahatlar, ilk növbədə, iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədlərinə xidmət edib. Bu istiqamətdə ölkədə institusional və tənzimləyici çərçivə təkmilləşdirilib, idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və tam şəffaflaşması üçün möhkəm zəmin yaradılıb.

Prezidentin yeni çağırışlara uyğun reallaşdırdığı islahatlar da ondan xəbər verir ki, postpandemiya dövründə ölkə iqtisadiyyatının dayanıqlığı təmin ediləcək və Azərbaycan iqtisadi cəhətdən heç bir sıxıntı yaşamayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresinin (SSBK) XIII Assambleyasının videokonfrans formatında iclası keçirilmişdir

## ASK prezidenti Məmməd Musayev təkrar Konqres Şurasının sədr müavini seçilmişdir

Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresi Avropa və Asiyanın işgüzar dairələri təşkilatlarının könüllü ictimai birliyi olmaqla 1992-ci ilin fevral ayında yaradılmışdır.



Hazırda MDB, Mərkəzi Avropa, Asiya, Afrikanın 28 ölkəsindən sənayeçilər və sahibkarların 30 milli ittifaqı konqresin tərkibindədir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) 1999-cu ildə təsis olunaraq fəaliyyət göstərir və konfederasiya həmin vaxtdan etibarən Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresinin fəal üzvlərindəndir.

Konqresin bir sıra Şura və Rəyasət heyətinin iclasları, beynəlxalq konfransları Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının evsahibliyi ilə Bakı şəhərində keçirilmişdir. Konqresin rəhbərləri və mütəxəssisləri Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının bütün tədbirlərində təmsil olunmuşlar.

2011-ci ildən etibarən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev fasiləsiz olaraq Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresi Şurasının sədr müavini seçilmişdir.

15 sentyabr 2020-ci il tarixdə Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresinin (SSBK) XIII Assambleyasının videokonfrans formatında iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayevin rəhbərliyi ilə konfederasiyanın nümayəndə heyəti də iştirak etmişdir. Tədbirdə SSBK-nın Şura sədri Vasili Pavloviç Tarlev Məmməd Musayevin şura sədrinin müavini kimi konqresin bütün tədbirlərində fəal iştirak etdiyini, sahibkarlığın inkişafına böyük töhfə verdiyini xüsusi vurğulamışdır.

Konqresin XIII Assambleyasında SSBK-nın üzvlüyünə qəbul, SSBK Şurasının və Təftiş Komissiyasının üzvlərinin seçilməsi, SSBK Prezidentinin növbəti dövr üçün təsdiqlənməsi və onun konqresin gələcək fəaliyyətinin prioritet istiqamətləri, onun həyata keçirilmə prinsipləri və formaları haqqında məlumatı kimi məsələlərə baxılmışdır.

İclasda ASK prezidenti Məmməd Musayev yenidən növbəti müddətə Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresi Şurasının sədr müavini, həmyerlimiz, SSBK-nın Türkiyə Respublikası, Orta Şərq və Afrika ölkələrinin işgüzar dairələri ilə qarşılıqlı əlaqələr üzrə Koordinasiya Şurası sədrinin müavini Elçin Seyidov şuranın üzvü, ASK prezidentinin baş məsləhətçisi Məhəmmədəli Əfəndiyev isə təkrarən şuranın Təftiş Komissiyasının üzvü seçilmişlər. Tədbirdə SSBK Prezidentinin məlumatı ətrafında Milli sahibkarlar təşkilatlarının bir qrup rəhbərləri ilə yanaşı, ayrı-ayrı nüfuzlu təşkilat rəhbərləri, o cümlədən Avroasiya iqtisadi komissiyasının inteqrasiya və makroiqtisadiyyatın əsas istiqamətləri üzrə Kollegiya üzvü-nazir, akademik Qlazev Sergey Yuryeviç, Moskva Ticarət-Sənaye Palatasının prezidenti Platonov Vladimir Mixayloviç, Rusiya Biznes və Sahibkarlıq Akademiyasının prezidenti Qorbulina İrina Vyaçeslavovna, Elmi İstehsalat "İqtisadi strategiya institutu"nun Baş direktoru Aqeev Aleksandr İvanoviç və digərləri çıxış etmişlər.

Çıxışlarda əsasən ayrı-ayrı ölkələrdə pandemiya şəraitində və pandemiyadan sonrakı dövrdə sahibkarlığın inkişafı, dövlət-biznes əlaqələri, qarşılıqlı tərəfdaşlıq məsələləri öz əksini tapmışdır. Daha sonra yaranmış vəziyyətdən çıxış yolları müzakirə olunmuşdur.

SSBK-nın 2021-ci ildə keçiriləcək növbəti Assambleyası zamanı müzakirəyə çıxarılması şərtilə, şuraya üzv qurumların və ekspert qruplarının iştirakı ilə konqresin İnkişaf Strategiyasının işlənib hazırlanması, konqresin mövcud olan bütün imkanları ilə üzvlərin uğurlu və səmərəli işinin təmin edilməsi, eləcə də aidiyyəti fəaliyyətin həyata keçirilməsi üçün hüquq, maliyyə, bank və əməkdaşlıq sahələri də daxil olmaqla müasir dəstək formalarının praktikada tətbiqinin təşviq edilməsi, həmçinin SSBK-nın gələcəkdə fəaliyyət prioritetlərinin uğurlu formada həyata keçirilməsi məqsədilə müvafiq qərarlar qəbul edilmişdir.

Daha sonra aidiyyəti məsələlərin müzakirəsi ilə Assambleya öz işini yekunlaşdırmışdır.

# *Müdafiə naziri:* "Azərbaycan Ordusu torpaqlarımızın azad edilməsi naminə müqəddəs vəzifəni yerinə yetirməyə hazırdır"





Sentyabrın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, əlahiddə hərbi hissə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri cari ilin ötən dövründə döyüş hazırlığı və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini aparıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət göstərdiyini qeyd edən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuz qarşısında qoyduğu tapşırıqları görüş iştirakçılarına çatdırıb.

Cəbhədəki son vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov şəxsi heyətin döyüş hazırlığını və ayıq-sayıqlığını yüksək səviyyədə saxlanılmasını, eləcə də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə törədə biləcəyi genişmiqyaslı təxribatların qarşısının dərhal və qətiyyətlə alınmasını əmr edib.

Azərbaycan xalqının Orduya inamının güclü olduğunu xatırladan nazir torpaqlarımızın işğaldan azad edilməsi naminə müqəddəs vəzifənin yerinə yetirilməsinə əsgərdən generaladək hər bir hərbi qulluqçunun hazır olduğunu bildirib.

Orduda həyata keçirilən döyüş hazırlığı tədbirləri, bölmələrin təminat və təchizatı, eləcə də döyüş qabiliyyətinin artırılması məsələlərini diqqətə çatdıran Müdafiə naziri həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Baş Prokurorluğun hazırladığı növbəti maarifləndirici videoçarxda cinayət prosessual qanunvericiliyin tələbləri izah olunub

Dövrün tələblərinə uyğun olaraq prokurorluq orqanları tərəfindən müasir, vətəndaşa yönümlü və onu məmnun edən tədbirlər daim diqqət mərkəzində saxlanılır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu tədbirlərin davamı kimi vətəndaş məmnunluğunun təmin olunması, eləcə də mühüm əhəmiyyət kəsb edən mövzularla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən prokurorluğun fəaliyyət istiqamətləri ilə əlaqədar vətəndaşları maraqlandıran məsələlərlə bağlı maarifləndirici videoçarxların hazırlanaraq #heçbilirdinizmi? həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin təqdim etdiyi videoda "Heç bilirdinizmi həbs nədir?" mövzusu ilə bağlı cinayət prosessual qanunvericiliyin tələbləri vətəndaşlarımıza izah olunub.

Həmin videonu Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrində, həmçinin veb-saytında izləmək mümkündür.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 34 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 34 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Gəncədə Hərbi Hospitalın yeni inşa edilmiş şöbəsinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər davam edir, müasir standartlara cavab verən hərbi infrastruktur yaradılır.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı kimi, sentyabrın 16-da Gəncə Qarnizonunda hərbi hospitalın yeni inşa edilmiş infeksion xəstəliklər şöbəsinin açılışı olub.

Tədbirdə iştirak edən general-mayor Xəqani Cəbrayılov və Müdafiə Nazirliyi Tibb Baş İdarəsi rəisinin müavini polkovnik Elxan İbrahimov şöbədə yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, inkişaf etmiş ölkələrdə istehsal edilən ən müasir tibbi avadanlıqlarla təchiz olunan şöbədə hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb.

Açılış mərasimində çıxış edən polkovnik E.İbrahimov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində aparılan islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də qazanılmış uğurlardan danışıb, Müdafiə nazirinin təbriklərini və tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyduğu tapşırıqları tədbir iştirakçılarına çatdırıb.

# Güclü təsirli maddələr gətirən şəxslər ifşa olunublar

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən güclü təsir edən maddələrin müntəzəm olaraq külli miqdarda Rusiya Federasiyasının gömrük sərhədindən, gömrük nəzarətindən gizli keçirərək Azərbaycan Respublikasına gətirməkdə, satış məqsədilə qanunsuz olaraq əldə etməkdə, saxlamaqda və daşımaqda, eləcə də digər hüquqazidd əməlləri törətməkdə şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Əsədov Emil Kamran oğlu, Hüseynov Şahin Mirhüseyn oğlu, Babayev Asif Siyafəddin oğlu, Hüseynov Rəşad Şahin oğlu, Musayev Vasif Zülfüqar oğlu, Əliyev Emil Xandadaş oğlu və Namazov Zaur Namaz oğlunun qanunsuz əməllərinin qarşısı alınıb.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, cinayət başında ifşa olunmuş həmin şəxslərin idarə etdikləri avtomobillərə və yaşadıqları mənzillərə keçirilmiş baxış zamanı külli miqdarda müxtəlif növ güclü təsir edən maddələr və digər maddi sübutlar aşkarlanaraq götürülüb.

Faktlarla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) və 240.3.2-ci (külli miqdarda güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi) maddələri ilə cinayət işləri başlanılıb.

Hazırda adları qeyd olunan şəxslərlə bağlı cinayət təqibi davam etdirilir.

# İki il əvvəl Kürdəmirdə törədilmiş qətl hadisəsinin üstü açılıb

Prokurorluq orqanları tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığın təhlükəli təzahürlərinə qarşı mübarizənin daha da gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi üzrə işin səmərəliliyinin artırılması istiqamətində genişmiqyaslı kompleks, ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək üçün prioritet istiqamətlərdən biri də ötən illərdən gizli və qeyri-aşkar şəraitdə törədilməklə bağlı qalmış cinayətlərin istintaq edilərək açılması ilə təqsirkar şəxslərin ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilmələridir.

Bu məqsədlə Baş Prokurorluq tərəfindən Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə kompleks plan tərtib edilib və ona uyğun istintaq, əməliyyat-axtarış tədbirləri həyata keçirilib, o cümlədən cinayətlərin açılması üçün zəruri tədbirlər görülüb, qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış məqsədyönlü tədbirlər, habelə səmərəli birgə fəaliyyət nəticəsində Kürdəmir şəhər sakini 1966-cı il təvəllüdlü Rəhimova Bəyim Əlirza qızının 2018-ci il noyabrın 29-da yaşadığı evdə yanmış vəziyyətdə meyitinin aşkar edilməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə istintaq olunan cinayət işinin açılması təmin olunub.

Peşəkar prokurorluq, polis və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə 1979-cu il təvəllüdlü Nuriyev Zahid Məhəddin oğlunun 2018-ci il noyabrın 28-də yaşadığı evdə spirtli içki qəbul etdikdən sonra sərxoş vəziyyətdə gecə saatlarında hasardan qonşuluqda yerləşən Bəyim Rəhimovanın yaşadığı evin həyətinə keçərək, oradan da mənzilə daxil olub sonuncunun evdə tək olmasından və gecə saatlarında ətrafda heç kimin olmamasından istifadə etməklə tamah motivi ilə istintaqa məlum olmayan alətlə bədəninin müxtəlif nahiyələrinə bir neçə dəfə vuraraq (meyit sonradan tam yandırıldığı üçün bunu müəyyən etmək mümkün olmayıb) qəsdən öldürdükdən sonra ona məxsus mobil telefonu və 915 əyarlı bir cüt gümüş sırğanı götürməsinə, törətdiyi cinayətləri ört-basdır etmək məqsədilə Bəyim Rəhimovanın meyitini yataq otağında çarpayının üzərinə uzadıb özü ilə gətirdiyi tezalışan neft məhsulunu cəsədin üzərinə tökərək yandırmasına əsaslı şübhələr müəyyən olunub.

İstintaq zamanı Zahid Nuriyevin mağazada satdığı mərhumun mobil telefonu, o cümlədən anasının yataq otağında gizlətdiyi mərhuma məxsus bir cüt sırğa aşkarlanaraq götürülüb. Həmçinin iş üzrə təyin olunmuş məhkəmə-fiziki kimyəvi ekspertizasının rəyi ilə Zahid Nuriyevin paltarları üzərində tezalışan neft məhsulları izlərinin olması müəyyənləşdirilib.

Cinayət işi üzrə kompleks məhkəmə-fiziki kimyəvi, tibbi kriminalistik, daktiloskopik, tibbi bioloji, əmtəəşünaslıq, kompüter-texniki və digər zəruri ekspertizalar təyin olunub, o cümlədən müvafiq əməliyyat tapşırıqlarının həyata keçirilməsi ilə bağlı zəruri tapşırıqlar verilib.

Əvvəllər Rusiya Federasiyasında narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz istehsalı, hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və zorlama cinayət əməllərində təqsirli bilinməklə 9 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş Zahid Nuriyev avqustun 19-da iş üzrə Cinayət Məcəlləsinin 120.2.5-ci (tamah məqsədi ilə adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda Baş Prokurorluğun İstintaq idarəsində cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabının təqdimatı keçirilmişdir

**Sentyabrın 15-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyilə nəşr edilən "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabının onlayn videokonfrans formatında təqdimatı keçirildi.**






"Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabı Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir" və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın "Türk millətini hələ tanımayıblar! Biz bir ölər, min dirilərik. Bu, bizim xarakterimizdir" kimi dəyərli fikirləri ilə açılır.

Təqdimatda türkdilli dövlətlərin Azərbaycandakı səlahiyyətli səfirləri, Türk Şurası, Türkdilli dövlətlərin Parlament Assambleyası, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatalarının nümayəndələri, Türkiyə və Azərbaycanın millət vəkilləri, sahibkarlar iştirak ediblər.

Salamlama nitqi ilə çıxış edən akademik Nizami Cəfərov tarix yazan türklərin öz tarixlərini yazmasının vaxtı gəlib çatdığını qeyd edib.

"Sentyabrın 15-də, Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunduğu gündə bu kitabın təqdimatını keçirməyimiz həm də bir rəmzi xarakter daşıyır. Azərbaycan və Türkiyə öz mənəvi birliyi ilə dünyaya bir nümunədir", - deyən akademik "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabının gələcək nəsillərin formalaşmasında mühüm rol oynayacağını vurğulayıb.

"Azərbaycan türk dünyasında çox mühüm mövqeyə sahibdir. Türk Şurasına rəhbərlik bu il Azərbaycandadır və Prezident İlham Əliyevin bu sahədəki fəaliyyəti çox böyükdür, çox dəyərlidir", - deyən Türk Şurasının Baş katibi Bağdad Amreyev, tədbirin təşkilinə görə ASK-ya və kitabın müəlliflərinə öz təşəkkürünü bildirdi.

Professor Ələmdar Şahverdiyev 15 sentyabr Bakının işğaldan azad olunması ilə bağlı bütün türk dünyasını təbrik edərək türkdilli respublikalar, türkçülük, islamçılıq və müasirləşmənin modelinin Əhməd bəy Ağaoğlu tərəfindən irəli sürüldüyünü və böyük Musatafa Kamal Atatürk tərəfindən türk dünyası üçün inkişaf modeli kimi qəbul olunduğunu xatırlatdı.

Kitabda Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" çağırışı, müasir müstəqil Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" nidası ilə bu gün də birlik, bütövlük rəmzinə dönən türk millətinin əbədi birliyindən soraq verilir. İstər Ulu Öndərin, istər də Prezident cənab İlham Əliyevin reallaşdırdığı bütün layihələrdə Türkiyə Azərbaycanla birgə sevinib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün müzakirələrdə Türkiyə Azərbaycanın, Türkiyə Cümhuriyyəti ilə əlaqəli məsələlərdə Azərbaycan Türkiyənin haqq səsinə dönüb. Professor kitabda bu məqamlarla yanaşı, türk birliyinə xidmət edən bir çox tarixi anlar, görüşlər, toplantılara dair materialların da yer aldığını qeyd edib.

Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva 15 sentyabrın tariximizdə çox önəmli bir gün olduğunu qeyd edib. "Bu gün Qafqaz İslam Ordusunun qəhrəmanları tərəfindən Bakıda həyata keçirilən qətliamların qarşısının alındığı, azərbaycanlıların xilas olunduğu şanlı tarixdir. Türk dövlətlərinin birliyinin güclənməsinə ehtiyacımız var. Gənclərimizə ortaq tariximizi öyrətməklə yanaşı, ortaq gələcəyimizin hamımız üçün daha etibarlı olduğunu da aşılamalıyıq. "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabı bu məqsədlərə çatmağımızda çox dəyərli bir vasitədir", - deyə Q.Paşayeva vurğulayaraq layihəyə görə Azərbaycan Sahibkarlar Konfederasiyasına, müəlliflərə təşəkkür edib.

"Bu gün böyük zəfərin 102-ci ilidir", - deyə xalqımızı təbrik edən Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özaral "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabının bütün türk xalqlarının birləşməsinə, dostluğuna, qardaşlığına xidmət edəcəyini nəzərə çatdırıb.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva kitabda türk dünyasının ruhunun ifadə olunduğunu vurğulayıb. O, "kitab türk tarixinin keçdiyi keşməkeşli, şanlı tarixinin səhifələrini açır. Kitab bəlkə öz tariximizi yenidən kəşf etməyə, yaxşı mənada dərs götürməyə imkan verir", - deyə öz fikirlərini bölüşdü.

Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibinin müavini Ali Yıldız türkləri bir araya gətirən "Biz Türkleriz! Çadırımız Gök Kubbesi!" kitabının sərkərdələrimizin qüdrətini, eyni zamanda, onların birliyinin bir təcəssümü olduğunu qeyd edib: "Bu kitabın türk respublikalarında deyil, bütün dünyada tanınacağına inanıram", - söyləyib.

Türkiyə Böyük Millət Məclisinin keçmiş deputatı Alaatdin Böyükkaya bildirib ki, insanlıq tarixində türklər qədər öz əsatirlərinə sığınan, onlar qədər mədəni irsinə bağlı olan ikinci xalq yoxdur. "Bu isə bizim böyük üstünlüyümüzdür. Türklər tarixi yaratmış, amma tarixi yazmamışlar. Bu kitabla tarix də yazılmağa başladı", - deyərək kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edib.

Millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun sözlərinə görə, 15 sentyabr - "Azərbaycan" qəzetinin kollektivi üçün çox əzizdir. Çünki müstəqil dövlətimizin yaratdığı "Azərbaycan" qəzetinin ilk nömrəsi məhz Bakının düşmənlərdən azad olunması ilə bağlı sevindirici xəbərin dərc olunmasına həsr edilib. "Böyük türk sərkərdəsi Nuru Paşanın teleqramı qəzetin ön səhifəsində verilib və göstərilib ki, Bakı düşməndən azad olundu, hökumət Gəncədən Bakıya gələ bilər. Belə kitablar bu şanlı tariximizin yazılmasında, gənc nəslin tərbiyəsində mühüm əhəmiyyətə malikdir. Ona görə də layihə rəhbəri Məmməd Musayev başqa olmaqla kitabın bütün yaradıcı heyətinə təşəkkür edirəm".

Daha sonra çıxış edən Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatının Türkiyə-Azərbaycan iş Şurasının sədri Selcuk Akat, Türkdilli dövlətlərin Ticarət və Sənaye Palatasının baş katibi Adem Kula, SOCAR şirkətinin vitse-prezidenti Süleyman Qasımov və digərləri türk tarixinə ithaf edilən bu kitabla bağlı əməyi keçənlərə təşəkkür ediblər.

Sonda kitabın müəllifi Nərman Qocatürk millət sevgisinə görə tədbirdə iştirak edən hər kəsə minnətdarlıq edib: "Yazdığım mənzərənin başqa bir mənzərəsini görürəm. Zaman yetişib və öz tariximizi yazmalıyıq, biz o xoşbəxt xalqlardanıq ki, bizim yaddaşımız var".

Layihənin rəhbəri, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev tədbir iştirakçılarına təşəkkür edərək iş adamlarının belə layihələri dəstəkləməyə daim hazır olduğunu bildirib.

# Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı liderliyini əldən vermir

*Əvvəli 1-ci səh.*

Bu səbəbdən rəqabətqabiliyyətli biznes işini onlayn təşkil edir, xidmətlərini məsafədən göstərir və əməkdaşlıqlarını videokonfranslar üzərindən qurur.

Pandemiyanın nə vaxt bitəcəyini proqnazlaşdırmaq hələlik mümkün deyil. Biznesdə isə pandemiyanın yaxın zamanlarda bitəcəyinə ümid bəsləmək mövqeyi itirmək, bazardan sıxışdırılıb kənara atılmaq deməkdir. Buna isə heç bir bazar iştirakçısı yol verə bilməz.

Azərbaycanda Rəqəmsal Ticarət Qovşağının rəhbəri Nicat Əsədli postpandemiya dövründə yeni münasibətlər sisteminin formalaşmasının səbəblərini belə izah edir ki, bu sistem gündəmə çıxan çətinliklərə və yeni çağırışlara cavab vermək baxımından biznes üçün ənənəvi fəaliyyət formasından daha sürətli, səmərəli və əlverişlidir. Biznes rəqəmsal tranformasiyanın avantajları ilə hələ indi tanış olsa da, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılan Rəqəmsal Ticarət Qovşağı (RTQ) yeni normanı hələ 2017-ci ildən tətbiq etməyə başlamışdır. Aradan keçən müddət ərzində RTQ bir çox istiqamətlərdə yeni layihələr tətbiq etməklə yanaşı, həm yerli, həm də xarici biznes nümayəndələrinə innovativ xidmətlər göstərmişdir.

Bizim RTQ Estoniyadan sonra dünyada ikinci elektron və birinci mobil rezidentlik təqdim edən platforma olmuşdur. m-Rezidentlərin məsafədən biznesə başlaması, bank hesabı açması və dövlət xidmətlərindən istifadə etməsi üçün inteqrasiyalar aparılmış, yeni imkanlar yaradılmışdır. Artıq yeni normanın üstünlüklərini anlayan 30 ölkədən 100-dən çox əcnəbi sahibkar proqrama müraciət və Azərbaycanın rəqəmsal rezidentliyini əldə etmişdir.

Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının təqdim etdiyi yeni norma yerli sahibkarları da əhatə edir. RTQ www.dth.az internet saytında onlayn vahid ixrac ərizəsi fərdi və hüquqi şəxslərə ixrac sənədləri üçün elektron müraciət imkanı təqdim etmişdir. Sahibkarlar indi asan imzaları ilə sərbəst satış sertifikatını tam onlayn qaydada ala bilirlər. Onlar yaxın zamanlarda mənşə, fitosanitar, baytarlıq, qida təhlükəsizliyi sertifikatı və gömrük bəyannamələrini də onlayn vahid pəncərədən əldə edəcəklər.

Nicat Əsədli onu da qeyd edir ki, yeni norma mühitində təqdim olunan xidmətlərin ən son texnoloji infrastrukturun üzərindən qurulması zəruridir. Buna görə RTQ-də qurulmuş sistem üçün X-Road 6 və 7 texnologiyasından istifadə edilmişdir. Estoniya, Finlandiya və Yaponiya kimi ölkələr tərəfindən tətbiq edilən bu sistemdən istifadə gələcəkdə beynəlxalq əməkdaşlıqlar zamanı informasiya mübadiləsinin daha sürətli və səmərəli həyata keçirilməsinə dəstək verəcək. Azərbaycanda məhz RTQ-də bu qabaqlayıcı sistemlərin tətbiqi növbəti illərdə "smart nation" konsepsiyasına keçidə təkan verəcək, 4-cü sənaye inqilabı fonunda regionda eyni adlı mərkəzin ölkəmizdə yaradılmasına zəmin yaradacaq.

Beləliklə, RTQ-nın həm yerli, həm də xarici biznes iştirakçıları, eləcə də dövlət və özəl sektor nümayəndələri üçün təqdim etdiyi yeniliklər istifadəçilərin məmnunluğunu artırmaqla yanaşı, pandemiya fonunda yaranan yeni normaya daha sürətlə keçməyə imkan verən katalizator rolunu oynayacaq. Qeyd etmək lazımdır ki, portalın bu potensialı haqqında beynəlxalq nüfuza malik portallarda geniş məqalələr dərc olunmuşdur.

Onu da qeyd etmək vacibdir ki, dördüncü sənaye inqilabının çağırışlarına uyğun olaraq Azərbaycan Böyük Britaniyadan sonra RTQ yaradan ikinci ölkədir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ekspertləri belə hesab edirlər ki, bu layihə ilə Azərbaycan regionda qeyri-neft sektoru üzrə investorlar üçün olduqca cəlbedici ölkəyə çevrilib. RTQ qeyri-rezident investorların mövcud regionda investisiya layihələrini ən rahat və təhlükəsiz şəkildə həyata keçirmələri üçün unikal imkanlar yaradan mükəmməl iqtisadi addımdır. RTQ-nin təqdim etdiyi m-rezidentlik və e-rezidentlik vasitəsilə sənədləşmələri aparan bütün proseslər çox sadə və təhlükəsizdir. Ölkəmizdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezidentlər ölkəyə daxil olmadan, sərhədi keçmədən dth.az saytında qısa müddətdə qeydiyyatdan keçə bilirlər.

RTQ həmçinin beynəlxalq əməkdaşlıq istiqamətində GUAM, ISESCO, GazinformService, Asecco Data System kimi böyük qurumlarla işgüzar əlaqələr qurmuş, transsərhəd əməliyyatların aparılması, qarşılıqlı imzaların tanınması və bununla da ölkələrarası biznes əlaqələrinin yaxşılaşdırılması istiqamətində bu qurumlarla memorandumlar imzalamışdır.

RTQ artıq üç ildir ki, davamlı olaraq beynəlxalq konfranslara evsahibliyi edir. İldən-ilə əhatə dairəsi və iştirakçı sayı artan konfransların keçirilməsində məqsəd elektron ticarət və elektron kommersiya, mobil və elektron identifikasiya, rəqəmsal hökumət sahələrində yeniliklərin tədqiq olunması, mövcud yerli və beynəlxalq təcrübə üzrə fikir mübadilələrinin aparılması, həmçinin innovasiyaların ictimaiyyətə doğru şəkildə ötürülməsidir.

Sözsüz ki, uğurlu inkişafdan, əldə edilən yüksək nailiyyətlərdən danışanda, ilk növbədə, aparılan islahatların məqsədyönlü olduğuna xüsusi diqqət ayırmaq lazımdır. Strateji yol xəritələrində də bu sahəyə aid islahat tədbirlərinə nəzər saldıqda rəqəmsal iqtisadiyyatın inkişafının öncədən və planlı şəkildə hədəflənmiş bir addım olduğunu görə bilərik.

Məhz Prezident İlham Əliyevin ölkədə informasiya və kommunikasiya sahəsinə verdiyi diqqətin nəticəsi olaraq Azərbaycan Şərq-Qərb, Şimal-Cənub dəhlizləri üzərində yerləşməklə təkcə nəqliyyat, logistika, neft-qaz layihələrini deyil, həm də rəqəmsal layihələri dəstəkləməklə artıq regionda lider ölkələrin sırasındadır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Peşə təhsili iqtisadi inkişafda mühüm məsələdir

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində Peşə Təhsil Mərkəzinin yaradılması da bunu təsdiqləyir

*Əvvəli 1-ci səh.*



Yaradılan şəraitlə tanış olan dövlət başçısına məlumat verildi ki, 500 tələbənin təhsil alması üçün nəzərdə tutulan mərkəzin binası 6 korpusdan ibarətdir. Onlarda da 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Mərkəzə 2020-2021-ci tədris ili üzrə müxtəlif peşələr - torna və frezer, eləcə də proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir. Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin rezidentlərinin mütəxəssisləri cəlb olunub. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi adı çəkilən Sənaye Parkının müəssisələrində keçiriləcək. Həmçinin praktiki dərslərin təşkili üçün burada təlim avadanlıqları stendləri də quraşdırılıb.

Xatırladaq ki, dövlət müstəqilliyinin bərpasından sonra təhsilin bu sahəsinə olan maraq azaldığından sıradan çıxma təhlükəsi ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra digər mühüm strateji sahələrdən biri kimi, peşə təhsilinə də diqqət və dövlət qayğısı göstərildi.

Ötən illər ərzində Azərbaycanın təhsil sistemindəki dəyişikliklər, aparılan köklü islahatlar, inkişaf etmiş Avropa və dünya dövlətlərinin təcrübəsinin milli strategiyaya uyğunlaşdırılması bu sahədə uğurların ildən-ilə artmasına səbəb olan amillərdən sayılır.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" imzaladığı 2016-cı il 16 mart tarixli sərəncam da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmin sərəncama əsasən, 8 əsas və 3 yardımçı olmaqla, 11 sektor üzrə iqtisadiyyatın 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək uzunmüddətli, 2025-ci ildən sonrakı dövr üçün isə hədəf baxışın hazırlanması barədə müvafiq tapşırıqlar verilib.

Bütün bunların icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" sənədinin hazırlanması da, əlbəttə, təsadüfi deyil. Bu sənəd peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyillər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan sistemin inkişaf etdirilməsini zərurətə çevirib.

Peşə təhsili və təliminin ümumi iqtisadi inkişafdakı əhəmiyyətini nəzərə alaraq, bir çox dünya ölkələri bu sahənin inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirir. İstehsalat təcrübələri ilk və orta peşə təhsili məzunları üçün təhsildən məşğulluğa keçidi təmin edən ən səmərəli alətlərdən biri kimi öz təsdiqini tapıb.

Beynəlxalq təcrübə göstərir ki, peşə təhsili ölkənin ümumi inkişaf strategiyasında mühüm rola malikdir. Buna görə də onun cəlbediciliyini artırmaq üçün dünya ölkələrində həm şagirdlər, həm də işəgötürənlər stimullaşdırılmaqla, sistemin məhsuldarlığının artırılması təmin edilir. Bundan başqa, marketinq kampaniyaları vasitəsilə peşə təhsilinin ictimai dəyərinin yaxşılaşdırılmasına getdikcə daha çox diqqət yetirilir.

Azərbaycanın da iqtisadi inkişaf strategiyasında peşə təhsilinin prioritet rolu nəzərə alınıb. 2016-cı ildə dövlət başçısının fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb. 2016-2017-ci illərdə Bakı, Gəncə şəhərlərində və Qəbələ rayonunda yerləşən peşə təhsili müəssisələri şəbəkəsi rasionallaşdırılıb, ümumilikdə, 34 peşə təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış 14 Peşə Təhsil Mərkəzi açılıb. Təhsil Nazirliyi tərəfindən iri sənaye mərkəzlərində və regionlarda rasionallaşdırma və optimallaşdırma tədbirlərinin davam etdirilməsi ilə bağlı təkliflər hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib.

2016-cı ildən başlayaraq peşə təhsili müəssisələrinə qəbulda şəffaflığın və vətəndaşların rahatlığının təmin olunması üçün həyata keçirilən "ASAN Peşə" layihəsi bu gün ölkəni demək olar ki, tam əhatə edir. İşəgötürənlərlə sıx əməkdaşlıq nəticəsində həyata keçirilən pilot layihələr çərçivəsində turizm, informasiya texnologiyaları, eləcə də xidmət sahəsi üzrə məzunların 60-70 faizdən çoxu işlə təmin edilir.

Peşə təhsili müəssisələrində müəllimliyin ictimai nüfuzunun artırılması, yüksək hazırlıqlı peşəkarların bu sənəti seçməsinə stimulun yaradılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilib. Belə ki, dövlət başçısının Sərəncamına əsasən, 2017-2018-ci illərdə 60 peşə təhsili müəssisəsində çalışan 2 minədək müəllim və istehsalat təlimi ustasının bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılıb. Həmçinin onların həftəlik dərs yükü norması 1.5, aylıq vəzifə maaşı isə orta hesabla 2 dəfə artırılıb.

Bir sözlə, peşə təhsili iqtisadi inkişafda mühüm məsələdir. Buna görə də strateji sahə olduğu nəzərə alınaraq, onun daim inkişaf etdirilməsi, problemlərinin həlli dövlətin diqqət mərkəzində saxlanılır. Yəqin ki, yeni tədris ilində də gənc nəsil bu sahəyə xüsusi diqqət ayıracaq. Sənət, peşə yönümlü təhsil hər zaman işəgötürənlərə də, götürülənlərə də gərəklidir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Ermənilərin və Ermənistanın gürcülərə və Gürcüstana qarşı xəyanətləri

Əvvəli 1-ci səh.

Ermənilər Cənubi Qafqazda aborigen olmayıblar, heç bir zaman daimi yaşamayıblar. Onların indiki Gürcüstan ərazilərinə gəlib yerləşmələri bir neçə mərhələdə həyata keçirilib. Bu ünsürün dövləti olmayıb, daim digər dövlətlərin hakimiyyəti altında yaşayıblar. Yaşadıqları ölkədə dövlət hakimiyyətinə qarşı etdikləri xəyanətə görə qisas alınacağından qorxan ermənilər Ön Asiyaya gələrək türk torpaqlarına, Şərqi Anadoluya yerləşiblər.

Ermənilərin xarici ölkələrdən kütləvi surətdə Cənubi Qafqaza - Azərbaycan və gürcü torpaqlarına gətirilib yerləşdirilməsi çar Rusiyasının əvvəlki dövrlərdə müəyyənləşdirdiyi və XIX əsrin əvvəllərində isti dənizlərə çıxmaq hədəfləyən strateji niyyətlərinin reallaşdırılması cəhdləri ilə bağlı olub. Rusiya imperiyası Qara dəniz boğazlarına yiyələnmək, oradan Aralıq dənizinə və Hind okeanına çıxmaq məqsədilə Qacarlar və Osmanlı dövlətlərinə qarşı apardığı işğalçı müharibələr zamanı azsaylı erməni ünsüründən istifadə edib. Ermənilər yaşadıqları dövlətə xəyanət edərək arxadan zərbə vurublar.

Çar Rusiyası Cənubi Qafqaza "xristianlığın müdafiəsi" şüarı altında daxil olsa da, əslində yuxarıda qeyd edilən strateji niyyətləri naminə itaətkar və qul psixologiyasına malik olan ermənilərin böyük bir kütləsini Gürcüstanda Osmanlı ilə sərhəd ərazilərdə yerləşdirib. Ermənilərin Gürcüstanda yerləşdirilməsində çar Rusiyası Osmanlı dövləti ilə sərhədlərinin mühafizəsini, demoqrafik şəraiti dəyişdirib özündən daha çox asılı salmaq və mərkəzə sıx bağlamaq məqsədi güdüb. Gəlmə ermənilər Qara dəniz sahillərinə, Cavaxetiyə, İmeretiyə və başqa ərazilərdə ən münbit torpaqlara yerləşdiriliblər və çarizmin yaratdığı şərait nəticəsində hiyləgərliklə qısa müddətdə varlanıblar. Onlar çarizmin himayəsindən istifadə edərək gürcülərin torpaqlarına, mal və mülkünə yiyələnmək, gələcəkdə onlara mane ola bilməmələri üçün müqavimət gücünü zəiflətmək məqsədi güdüblər. Onlar indiki Gürcüstan ərazisində sadəcə olaraq yerləşməklə kifayətlənməyiblər, imperiya həyatı üçün əhəmiyyətli olan bütün sahələrə nəzarəti əllərinə almağa çalışıblar. Oğurluq və quldurluq yolu ilə varlanan ermənilər bankları, bazarları və xidmət sahələrini ələ keçiriblər.

Gürcü çarlığının ləğvində və gürcü xalqının müstəmləkəçilik əleyhinə qalxan üsyanların yatırılmasında ermənilər xüsusi qəddarlıqları ilə seçiliblər. Onlar bu dəfə də gürcülərə xəyanət edərək arxadan zərbə vurublar.

XIX əsrin ortalarından etibarən məqsədi Osmanlı dövlətini parçalamaq olan "Şərq məsələsi" meydana çıxdıqdan sonra imperialist dövlətlər niyyətlərinə çatmaqdan ötrü erməni ünsüründən istifadə ediblər. Yaranmış şəraiti qiymətləndirən ermənilər öz maraqlarını - torpaqlara yiyələnmək, varlanmaq və daxili idarəçiliklərini qurmaq üçün Osmanlı ərazisində fəallaşıblar.

Çarizm hakimiyyət orqanları tərəfindən yaradılan şərait nəticəsində qısa müddətdə varlanan ermənilər gürcüləri qriqorianlaşdırmaq və ermənləşdirmək üçün səylər ediblər. Gürcü kilsələrinin onlara məxsus olduğunu sübut etmək üçün geniş iş aparıblar.

1877-1878-ci illər rus-türk müharibəsindən sonra fəallaşan ermənilər ilk terror-siyasi təşkilatları olan Armenakan, Qnçak və Daşnaksütyun qurublar. Başlıca məqsədi torpaqları ələ keçirmək, gürcüləri yaşadıqları ərazilərdən qovmaq, boşalan yaşayış məntəqələrinə erməniləri gətirib yerləşdirmək və gələcəkdə xəyali "Böyük Ermənistan" qurmaq üçün zəmin hazırlamaqdan ibarət olan təşkilatların proqramında hədəfə çatmağın vasitələrindən biri kimi terror göstərilib. Cənubi Qafqaza terroru ilk dəfə məhz erməni təşkilatları gətiriblər.

Erməni təşkilatları gürcü, rus və yəhudi əsilli varlı şəxslərə və məmurlara qarşı terror törədiblər. Pul əldə etmək üçün ayrı-ayrı şəxsləri hədələyib və bankları soyublar. İstədikləri vəsaiti verməyən şəxslər öldürülüb. Terrorçuların qurbanları arasında gürcülər də olub.

Məqsədlərinə nail olmaqdan ötrü təbliğatı aparmaq üçün erməni təşkilatları mətbuat orqanları və mətbəələr yaradıblar. Qəzet və jurnallarında ermənilərin uydurma "əzabkeş" obrazı təbliğ edilib, digər xalqlar, o cümlədən gürcülər məqsədyönlü şəkildə gözdən salınıb. Ermənilər arasında təbliğat digər millətlərə nifrət, digər xalqlar arasında təbliğat isə kosmopolit ruhda aparılıb.

Erməni terror-siyasi təşkilatları Tiflis quberniyasında silah və sursatı oğurluq yolu ilə toplayıblar. Partlayıcı maddələr hazırlayan sexlər qurublar.

Daşnaksütyun və digər erməni təşkilatları XX əsrin əvvəllərində Cənubi Qafqazda, xüsusən Tiflis quberniyasında terror və qırğınlar törədiblər. Quberniyada 1903-cü ildən 1914-cü ilədək erməni terror təşkilatları qəddar fəaliyyətləri ilə seçiliblər. Erməni kilsə mülkiyyətinin dövlətin nəzarətinə alınmasına etiraz olaraq erməni təşkilatları Tiflisdə qarışıqlıq yaradaraq silahlı toqquşma törədiblər, nəticədə çoxlu gürcü xəsarət alıb və ziyan görüb.

İmperiya ərazisində 1905-1906-cı illərdə baş verən qarışıqlıqda xüsusilə seçilən erməni terror-siyasi təşkilatları təkcə türklərə, müsəlmanlara qarşı deyil, hətta himayədarları olan ruslara qarşı da qanlı terror aktlarını həyata keçiriblər. Onlar gürcüləri etnik təmizləməyə məruz qoyaraq yaşadıqları əraziləri genişləndirməyə çalışıblar.

Cənubi Qafqazın müxtəlif yerlərində, o cümlədən Tiflis quberniyasında gürcü mənşəli məmurlar erməni terrorunun qurbanı olub. Bakı qubernatoru - gürcü millətindən olan M.A.Nakaşidze və məmur erməni terrorçuları tərəfindən öldürülüb. Törədilən hər bir terror aktına görə müəyyən edilmiş qonorar verilib.

Ermənilər gürcülərlə qarışıq yaşadığı kəndlərdə onlara qarşı təzyiqlər edib, mal və mülkünü oğurlayıblar. Qonşuluqda olan gürcü kəndlərinə isə gecələr hücum edərək təhdid altında saxlayıblar. Bununla da onları yaşamaq üçün çətin vəziyyətə salıblar.

Baş verən hadisələr çarizm orqanları tərəfindən imperiyaya qarşı deyil, milli qarşıdurma kimi təqdim edilsə də, erməni terror-siyasi təşkilatlarının başlıca məqsədi gürcüləri yaşadıqları kəndlərdən qovmaq, oraya xaricdən erməniləri gətirib yerləşdirmək, gələcək planlarını həyata keçirmək üçün onlara mane ola biləcək xalqları, o cümlədən gürcüləri zəiflətmək və müqavimət gücünü azaltmaq olub.

Tiflis quberniyasında yaşayan ermənilərin əksəriyyəti erməni dilini bilməyiblər, yalnız kilsəyə gəldikdə erməni olduqlarını anlayıblar. Beləliklə, erməni ünsürü terror təşkilatlarının təhdidi və kilsənin mənəvi dayağı ilə bir yerə toplanıb. Erməni kilsəsi də terror təşkilatlarının nəzarəti altında olub. Bu isə onu deməyə əsas verir ki, ermənilərin xalq kimi formalaşmasının təməlində terror təşkilatları və kilsə dayanıb. Həmin amillər bütün sonrakı dövrlərdə ermənilərin gündəlik həyat tərzinə, qonşularla münasibətlərinə, qurduqları Daşnak Ermənistanının, sovet Ermənistanının və Ermənistan Respublikasının daxili və xarici siyasətinə təsir edib.

Erməni təşkilatlarının başlıca məqsədi ilk mərhələdə özünüidarəçilik qurmaq olub. Çarizm Birinci Dünya müharibəsi ərəfəsində torpaq islahatı keçirmək istərkən erməni xadimlərinin ayrıca inzibati idarəçilik qurulmasını tələb etmələri həmin niyyətlərdən irəli gəlib. Lakin çarizm gürcülərin və azərbaycanlıların da bu istəklərə düşmələrindən narahat olaraq erməni iddialarını rədd edib.

Erməni terror-siyasi təşkilatlarının gürcülər əleyhinə fəaliyyətlərində Birinci Dünya müharibəsi illəri müəyyən yer tutur. Bu illərdə fəaliyyətlər bir neçə istiqamətdə aparılıb: Tiflis şəhəri çarizm hakimiyyət orqanlarının icazəsi ilə erməni "könüllüləri"nin hazırlanıb Qafqaz cəbhəsinə göndərildiyi yer olub; erməni təşkilatları və mətbuatı erməni ünsürünü tərifləyib, imperatora sədaqətli olan kimi təqdim ediblər, gürcüləri və digərlərini isə müxtəlif yollarla gözdən salıblar; hərbi əməliyyatlar zonasından qaçan ermənilərin bir qismini Tiflis quberniyasında yerləşdirməyə nail olublar; Tiflis şəhərinin idarəçiliyini, maliyyə və təsərrüfatını ələ keçiriblər. Erməniləri gürcü torpaqlarına yerləşdirməkdə başlıca məqsəd gürcülərə məxsus yaşayış yerlərindən onları sıxışdırıb çıxarmaq, xarici ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq və gələcəkdə uydurma "Böyük Ermənistan" qurmaq üçün zəmin hazırlamaq olub.

Dünya müharibəsinin gedişində - 1917-ci ilin fevralında Rusiyada monarxiyanın devrilməsindən sonra qurulan Müvəqqəti hökumətin zəifliyindən istifadə edən erməni terror-siyasi təşkilatları Cənubi Qafqazda, o cümlədən Tiflis quberniyasında mövqelərini möhkəmləndirməyə və şəraitə nəzarət etməyə çalışıblar. Müvəqqəti hökumətin regiondakı orqanlarına yerləşən erməni xadimləri gürcülər əleyhinə olan fəaliyyətlərini davam etdiriblər.

1917-ci ilin payızında Rusiyada bolşeviklər çevriliş yolu ilə Müvəqqəti hökuməti devirib hakimiyyətə gəldikdən sonra Cənubi Qafqazda yeni şərait yaranıb. Qafqaz cəbhəsi dağıldıqdan sonra geri çəkilən rus ordusu ilə bərabər Cənubi Qafqaza gələn erməni silahlı bandaları gürcülərə qarşı da qanlı terror aktları həyata keçiriblər.

Regionun inzibati mərkəzi olan Tiflisə toplaşan azərbaycanlı, gürcü və erməni nümayəndələrinin bolşevik hakimiyyətini tanımayaraq qurduqları Zaqafqaziya Komissarlığında, sonra isə Zaqafqaziya Seymində ermənilər üstün rol oynamağa çalışıblar.

Bu zaman erməni silahlı dəstələri gürcü xadimlərini hədələməklə və gürcü kəndlərini soyub-talamaqla da məşğul idilər. Həm komissarlıq, həm də ondan sonra qurulan seym erməni bandalarının cinayətkar əməllərini dayandıra bilməyib. Əsassız erməni iddiaları, daxili ziddiyyətlər və beynəlxalq şərait ucbatından Zaqafqaziya Seymi fəaliyyətini davam etdirə bilməyib. Gürcü Milli Şurası tərəfindən Gürcüstanın dövlət müstəqilliyinin elan edilməsi ilə Zaqafqaziya Seymi də dağılıb. Gürcüstan dövlət müstəqilliyinin elan edilməsi erməni xadimləri tərəfindən xəyanət kimi qiymətləndirilib. Müxtəlif siyasi istiqamətli olmalarına baxmayaraq, erməni daşnakları və bolşevikləri gürcü xalqının azad seçiminə etiraz edərək düşmən münasibətdə olublar.

Azərbaycan torpaqlarında yaradılan Daşnak Ermənistanı və Gürcüstan ərazisindəki ermənilər müstəqil Gürcüstan dövlətinin zəiflədilməsinə, habelə hökumət qurumlarının fəaliyyətinin normal həyata keçirilməsinə mane olmaqdan ötrü müxtəlif istiqamətlərdə fəaliyyət göstəriblər. İlk növbədə ermənilərin Gürcüstan ərazilərinə yerləşdirilməsi davam etdirilib. Xüsusən yoluxucu xəstəliklərə düçar olmuş erməniləri gürcü kəndlərinə və ya onlarla qonşu kəndlərə yerləşdiriblər. Daşnak Ermənistanı xəstə erməniləri qəbul etməkdən imtina edib.

Ermənistan hökuməti vətəndaşlığa dair məsələlərdə Gürcüstan dövlətinin daxili işlərinə qarışıb. Belə hesab edib ki, vətəndaşlıq haqqında Gürcüstanda qəbul edilən qanun erməni ünsürünə qarşı yönəlib.

Gürcüstan daxilindəki ermənilər İrəvandan verilən işarə ilə gürcü dövlətinin tezliklə məhv olacağına dair şayiələr yayıblar. Erməni mətbuatı gürcülər əleyhinə təbliğatı genişləndirib.

Ermənilər Gürcüstan ordusunu zəiflətməkdən ötrü fərarilik edərək anarxiya yaratmağa çalışıblar. Erməni gəncləri arasında ordu əleyhinə təbliğat aparılıb və təxribatlar törədilib.

Daşnak Ermənistanı Gürcüstana qarşı əsassız ərazi iddialarını irəli sürüb. İrəvan hökuməti mübahisəli məsələlərin həlli məqsədilə gürcü tərəfinin təklifi ilə başlanan danışıqlardan müxtəlif bəhanələrlə boyun qaçırıb. Keçirilən ikitərəfli danışıqları pozduqdan sonra Gürcüstan əleyhinə fəaliyyətlər daha da genişləndirilib və hərbi təcavüz üçün hazırlıq işlərinə başlayıb. Paralel olaraq Gürcüstandakı erməniləri dövlət hakimiyyəti əleyhinə qiyamlara və təxribatlar törətməyə təhrik edib.

Əsassız ərazi iddialarını həyata keçirmək üçün Daşnak Ermənistanı Gürcüstan Demokratik Respublikasına qarşı hərbi təcavüzə başlayıb. Müharibənin başlanması səbəblərinə tərəflərin baxışları fərqli olub. Ermənistan tərəfi Gürcüstanda yaşayan "erməniləri qorumaq adı altında" hərbi əməliyyatlara başladığını bildirib. Gürcüstan tərəfi bunu Ermənistanın xəyanəti, torpaq qoparmaq və hərbi təcavüz kimi qiymətləndirib.

Hərbi əməliyyatların gedişində təkcə hərbçilər deyil, minlərlə günahsız gürcü təcavüzkar Ermənistan ordusu tərəfindən öldürülüb, yaralanıb və əsir götürülüb. Gürcüstan iqtisadiyyatına ağır zərbə vurulub. Gürcüstan vətəndaşı olan ermənilərin böyük əksəriyyəti bu dəfə də dövlətə və gürcü xalqına xəyanət edərək təxribat törədiblər, körpüləri partladıblar, dəmir yol relslərini sıradan çıxarıblar, silahlı dəstələr yaradaraq əhalinin malını və mülkünü talayıblar.

Azərbaycanlılar isə orduya çağırılmamalarına baxmayaraq, könüllü dəstələr yaradaraq gürcülərlə çiyin-çiyinə işğalçı Ermənistana qarşı döyüşlərdə iştirak ediblər. Bu müharibədə azərbaycanlılar qəhrəmancasına həlak olublar.

Ermənistan və Gürcüstan arasında hərbi əməliyyatlar Qafqazdakı ingilis hərbi komandanlığının vasitəçiliyi ilə dayandırılıb və sülh bağlanıb. Müharibə nəticəsində Gürcüstan tarixən azərbaycanlıların yaşadığı Dağ Borçalısını (Lori) itirib. Buna baxmayaraq, Ermənistan tərəfi Gürcüstana qarşı olan ərazi iddialarından və düşmənçilik hərəkətlərindən imtina etməyib.

Bolşevik Rusiyası Ermənistanı işğal etdikdən sonra hakimiyyətdən gedən daşnakların yerini erməni bolşevikləri tutub. Rejim və ideologiya dəyişsə də, Gürcüstana və gürcülərə münasibətdə yürüdülən siyasətin mahiyyəti və məqsədləri dəyişməyib. Bolşevik Rusiyasının əlində alət olan Ermənistan SSR hökuməti Gürcüstan Demokratik Respublikasına qarşı düşmənçilik siyasətini yürüdüb, onu zəiflətməkdən ötrü müxtəlif üsullardan istifadə edib. Ermənistan sovet hakimiyyəti Gürcüstan ərazisində yaşayan erməniləri müstəqil gürcü dövlətinin süqutdan ötrü qiyamlara təhrik edib. Gürcü xalqı dövlət müstəqilliyini elan edən zaman ona düşmənçilik münasibəti bəsləyən ermənilər yenə də xəyanət edərək həmin müstəqil dövlətin yıxılmasında müstəsna rol oynayıblar. Gürcüstanın bolşevik Rusiyası tərəfindən işğal edilməsində erməni bolşevikləri müəyyən rol oynayıblar.

Xaricə mühacirət edən daşnaklar isə mətbu orqanları vasitəsilə Gürcüstana qarşı ərazi iddialarını gündəlikdə saxlayıb və təbliğ ediblər. Dərc edilən məqalələrdə gürcülər daim aşağılanıb.

Gürcüstan işğal edilib sovetləşdirildikdən sonra Mərkəzi hakimiyyət gürcü millətçiliyindən ehtiyat edərək bu respublikada ermənilərin təsirinin artmasına çalışıb. Onun yollarından biri sovet hakimiyyətinin ilk illərində xaricdən ermənilərin gətirilərək Cənubi Qafqaza, o cümlədən Gürcüstan ərazilərinə yerləşdirilməsi olub. Xalqlar dostluğu, qardaşlıq, dostluq və beynəlmiləlçilik şüarları adı altında Gürcüstana müxtəlif etnik qruplar, xüsusən erməni ünsürü kütləvi şəkildə köçürülüb. Ermənilər gürcülərlə yanaşı, türklərin, azərbaycanlıların, abxazların, acarların məskunlaşdığı ərazilərdə yerləşdirilib.

Bolşevik cildinə girən daşnaklar Gürcüstanda da dövlət və hakimiyyət orqanlarına daxil olaraq gürcülər əleyhinə fəaliyyət göstəriblər. Bəziləri gürcü ad və soyadlarını götürərək müxtəlif vəzifələr tutmağa nail olublar.

Ermənistan SSR də öz növbəsində daşnakların Gürcüstan SSR-ə qarşı olan ərazi iddialarını davam etdirib. Nəticədə sovet hakimiyyətinin ilk illərində Mərkəzin təzyiqi ilə Gürcüstan ərazilərinin bir hissəsi Ermənistana verilib.

XX əsrin 20-80-ci illərində xaricdə yaşayan erməni təşkilatları antigürcü fəaliyyətlərini davam etdiriblər. Mətbuat orqanlarında Gürcüstandan Axalkələkin qopardılması zəruriliyi təbliğ edilib. Bu ərazi uydurma "Böyük Ermənistan"nın bir parçası olaraq göstərilib.

80-ci illərin sonları - 90-cı illərin əvvəllərində gürcü xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə ağır və mürəkkəb şəraitin yaranmasından istifadə edən erməni icması Gürcüstanda daha da fəallaşıb. Müstəqillik illərində ermənilər özlərinin mövqelərini Tbilisi, Samtsxe-Cavaxeti, Abxaziya və Acarıstanda daha da möhkəmləndiriblər. Azad bazar iqtisadiyyatı şəraitində onlar idarəçilik, bazarlar, maliyyə, sənaye, təsərrüfat həyatı və informasiya məkanında vacib mövqelər tutublar.

Ermənilərin Gürcüstandan mühacirəti artsa da, ermənilər yeni şəraitə uyğun olaraq təşkilatlarını qurmağa başlayıblar. Qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin geniş şəbəkəsi qurulub. Erməni təşkilatları fəaliyyətləri üçün ideoloji mənbəyi XIX əsrdə yaradılmış erməni terror-siyasi təşkilatlarının proqramlarından götürüblər. Bununla da Gürcüstan daxilində dövləti təhdid edə biləcək hala gəliblər.

İndiki Gürcüstan ərazisinə ermənilər kütləvi olaraq XIX əsrdən etibarən köçürülmələrinə baxmayaraq, özlərinin aborigen olmalarını sübut etmək üçün bütün vasitələrdən istifadə edirlər. Ermənilər və erməni təşkilatları Gürcüstan dövlətinə və gürcü xalqına geniş anlamda bir neçə istiqamətdə təhdiddirlər. Ermənilər separatçı abxazlarla birlikdə Gürcüstan dövlətinə qarşı vuruşaraq növbəti dəfə gürcü xalqına və dövlətinə xəyanət ediblər. Ermənilər gürcü-abxaz müharibəsi zamanı gürcülərə qarşı xüsusi amansızlıq ediblər. "Baqramyan batalyonu" gürcü qadınlara, qocalara, uşaqlara və xəstələrə aman verməyib. Gürcüləri qovan ermənilər onların evlərini, mal və mülklərini ələ keçiriblər. Qeyd etmək lazımdır ki, erməni bandalarının separatçı Abxaziyada mülki gürcü əhalisinə qarşı törətdikləri qanlı əməlləri heç də "abxaz sevgisindən" irəli gəlməyib. Ermənilər Abxaziyada saylarını artırmaqla Qara dəniz sahillərində möhkəmlənməyə çalışırlar. Son illərdə Abxaziya separatçı qurumunda ermənilər idarəçilikdə daha çox yerləşərək təsiredici hala gəliblər.

Ermənilər Sxinvalidən gürcülərin qovulmasında və məhv edilməsində xüsusi rol oynayıblar. Onların malını və mülkün ələ keçirib, evlərinə yerləşiblər.

Samtsxe-Cavaxetidə erməni təşkilatlarının fəaliyyətləri gürcü xalqı və dövləti üçün təhdiddir. Qurulmuş partiyalar və qeyri-hökumət təşkilatları özlərinin təbirincə deyilərsə, "Cavaxk" adlandırdıqları ərazinin ermənilərə mənsub olduğunu hər vəchlə təbliğ edərək zaman-zaman muxtariyyət iddialarını gündəliyə gətirirlər. Erməni təşkilatları Gürcüstan dövlətini zəiflətməyi, gürcü xalqının müqavimət gücünü azaltmağı, ölkəni parçalamağı, "erməni torpağı" hesab etdikləri Samtsxe-Cavaxetini qoparıb Ermənistana birləşdirməyi son hədəf olaraq qarşılarına qoyublar. Onlar bu ərazini "tarixi torpaqları", "ana vətənləri" hesab edərək bildirirlər ki, gürcülər Cavaxetiyə gəlmədirlər, burada onlara aid olan tarix və mədəniyyət abidələri yoxdur. Bölgədə erməni dilinin hakim olduğuna və hər yerdə Ermənistan bayrağının asılmasına rast gəlmək olar. Ermənilər hesab edirlər ki, onların varlığı, təhlükəsizliyi və inkişafı üçün təminatçı gürcü dövləti deyil, Ermənistandır. Bəzi erməni "xadimləri" isə irəli gedərək Samtsxe-Cavaxetinin Ermənistana birləşdirilməsi tələbi ilə çıxış etsələr də, hesab edirlər ki, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi tənzimlənmədiyindən "yeni cəbhə" açmağın zamanı hələ yetişməyib.

Erməni təşkilatları və "ekspertləri" Gürcüstanın Qərb ölkələri və NATO ilə əməkdaşlığına qarşı çıxırlar. Açıq şəkildə bildirirlər ki, Gürcüstanın NATO ilə əməkdaşlığı Ermənistanın və ermənilərin maraqlarına ziddir, əgər Gürcüstan NATO-ya üzv qəbul edilərsə, onda müvafiq tədbirlər görəcəklər.

Erməni təşkilatları azərbaycanlıları tarixi yurdu olan Kvemo-Kartlidən (Borçalı) sıxışdırmağa çalışırlar.

"Gürcülərsiz Gürcüstan" və "Gürcüstanda Ermənistan" şüarlarını bütün erməni ünsürü arasında yayan erməni təşkilatları erməniləri ən əlverişli ərazilərə və mövqelərə sahib olmağa çalışırlar. Acarıstanda ermənilər idarəçilik, xidmət və turizm sahələrində möhkəm yerləşərək geniş maliyyə imkanları qazanıblar. Bəzi erməni təşkilatları, ziyalıları və mətbuatı Tiflisi erməni şəhəri hesab edərək yazırlar ki, guya şəhərdə yaxşı nə varsa hamısı ermənilərə məxsusdur, Tiflis sonradan gürcülərin olub.

Gürcüstandakı erməni ünsürü və təşkilatları təbii olaraq özbaşına hərəkət etmirlər. Bir çoxu bilavasitə İrəvandan edilən maliyyə və təşkilati dəstəklə yaradılan bu təşkilatların üzərində Ermənistan Respublikasının müvafiq dövlət, hökumət və qeyri-hökumət təşkilatlarının böyük təsiri vardır. Ermənilərin qeyri-hökumət təşkilatlarının və siyasi partiyaların fəaliyyəti, onların Gürcüstanın daxili və xarici siyasətinə müdaxilə etməsi, antigürcü fəaliyyətlər göstərməsi məhz Ermənistan dövlətinin, bu ölkədə fəaliyyət göstərən müxtəlif siyasi, ictimai təşkilatların dəstəyi ilə baş verir.

Ermənistanla yanaşı, xaricdəki, xüsusən Rusiyadakı erməni diasporunun da Gürcüstanda erməni icması və erməni təşkilatları üzərində böyük təsiri var. Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları daha çox kənar qüvvələrin "5-ci kolonu" rolunu oynayırlar. Onların fəaliyyəti Gürcüstan dövlətinin zəiflədilməsinə, gürcü xalqının müqavimət gücünün aşağı salınmasına və kənar qüvvələrin məqsədlərinin həyata keçirilməsinə kömək edir.

Gürcülər və Gürcüstan əleyhinə fəaliyyətlərdə Erməni Apostol kilsəsi də müəyyən rol oynayır. Kilsə dini inanc məsələləri ilə yanaşı, ermənilərin "milli məsələlərini" gündəliyə gətirir, həmin hissləri qızışdırır və ölkənin daxili işlərinə müdaxilə edir. Kiləsəyə gələn ermənilər ibadət yerini daha çox siyasi diskussiya klubuna çevirdiklərindən fəaliyyəti geniş mənada Gürcüstan dövlətinin maraqlarına təhdiddir.

Gürcüstanda erməni məktəblərinin geniş şəbəkəsi mövcuddur. Ölkədə ermənilərin sayının azalması təbii olaraq erməni məktəblərinin də sayına təsir edir. Məktəblərin başlıca problemi şagird və müəllim çatışmazlığı olsa da, erməni təşkilatları bu vəziyyəti gürcü hökumətinin yürütdüyü təhsil siyasəti və ermənilərin əleyhinə olmaqla əlaqələndirirlər.

Gürcüstanda erməni dilli kütləvi informasiya vasitələrinin geniş şəbəkəsi qurulub və fəaliyyət göstərir. Zəngin erməni iş adamları və fondlar tərəfindən maliyyələşdirilən qəzet, jurnal, radio və televiziyalar, internet televiziya kanalları Gürcüstanda yaşayan erməni ünsürünün "maarifləndirilməsi" üçün nəzərdə tutulsa da, daha çox "ümumi erməni maraqlarını qorumaqla" məşğuldur. Həm çap, həm də elektron KİV-də erməni milli kimliyinin qorunması önə çəkilərək təbliğ edilən məqalələrdə Gürcüstanda tarix və mədəniyyət sahəsində ermənilərin rolu şişirdilir, icma problemlərinin mümkün həll yollarının tapılmasına, müzakirəsinə və axtarışına səylər edilir. Ermənilərin bütün problemləri üçün Gürcüstan hakimiyyət orqanları günahkar bilinir. Ermənidilli mətbuat orqanları başlıca məqsəd kimi erməni icmasının gürcü cəmiyyətinə inteqrasiyasını şüar kimi səsləndirsələr də, onlar separatçı xarakterli informasiyalar ötürür, dövlət daxilində "dördüncü hakimiyyət" vasitəsilə ayrı-seçkilik yaradırlar.

Ermənilərin Cavaxk təşkilatında bir araya gələn erməni politoloqlarının Gürcüstanda erməni dilinə rəsmi dövlət dili statusu verilməsini istəmələri barədə səsləndirdikləri fikirlər əslində dövləti təhdid etməkdir. Cavaxetidə "ermənilərə milli muxtariyyət" statusunun verilməsi tələbləri ilə yanaşı, bütün orta məktəblərdə, vilayət televiziyasında, regional mətbuatda, universitetdə, dövlət idarələrində bütün kargüzarlıq işinin erməni dilində olması və vilayət parlamentinin yaradılması təkliflərinin zaman-zaman səsləndirilməsi bir daha göstərir ki, Gürcüstandakı erməni kilsəsinin, din xadimlərinin, məktəblərinin və KİV-in fəaliyyəti gürcü dövlətini təhdid edə biləcək hala gəlib. Erməni ziyalıları, KİV və təşkilatları Gürcüstanın Abxaziya bölgəsini xəyali "Böyük Ermənistanın" Qara dəniz və ya Qərb sahili, "Kiçik Ermənistan" hesab edirlər.



İddialarını "əsaslandırmaq" üçün erməni "alimləri", ilk növbədə, Gürcüstan ərazisindəki tarix və mədəniyyət abidələrinin mənsubiyyətini saxtalaşdırıb onlara yiyələnməyə çalışırlar. Ölkə ərazisindəki gürcü, qıpçaq, yunan və b. kilsələrin guya ermənilərə məxsus olmasına aid müxtəlif əsərlər yazmaqla, abidələr üzərindəki yazıları silmək və erməni yazıları əlavə etməklə saxta "əsaslar" yaradırlar, hər vəchlə gürcüləri gözdən salmağa çalışırlar. Bütün bunlarla yanaşı, erməni kilsəsi gürcü kilsələrini özünə tabe etdirmək üçün cəhdlər edir.

Gürcü tarixini məqsədyönlü şəkildə saxtalaşdıran erməni "tədqiqatçıları" bildirirlər ki, guya gürcülər Qafqazın yerli, aborigen əhalisi deyil, gəlmədirlər, gürcü tarixi erməni tarixinin bir hissəsidir, gürcülərin özünəməxsus tarixləri mövcud deyildir, gürcüləri ermənilər xristianlaşdırıblar. Belə bir fikri "əsaslandırmağa" çalışırlar ki, guya gürcülər böyük tarixi şəxsiyyətlər, dövlət adamları, elm, mədəniyyət, hərb xadimləri yetişdirə bilməzlər, gürcülərin məşhur adamlarının hamısı erməni əsillidir. Gürcü toponimlərini erməniləşdirməyə çalışan erməni "alimləri" bildirirlər ki, Gürcüstan ərazisindəki toponimlər erməni mənşəlidir, sonradan gürcüləşdiriliblər. Bütün bu uydurmalarda başlıca məqsəd Gürcüstanı parçalamaq, torpaqlarına sahib olmaq və gələcəkdə uydurma "Böyük Ermənistan" qurmaq üçün "elmi əsaslar" yaratmaqdır.

Erməni təşkilatlarının və "alimlərinin" gürcülər və Gürcüstan əleyhinə fəaliyyət istiqamətlərindən biri gürcü soyadlarını götürərək dövlət və hakimiyyət orqanlarına yerləşmələridir. Bu fəaliyyət üsulunun çarizmin Cənubi Qafqazı işğal etməsindən sonra keçən bir tarixi vardır. Elə bunun nəticəsidir ki, Gürcüstan Təhsil Nazirliyində müxtəlif vəzifələr tutan erməni əsilli məmurlar orta məktəbin tarix dərsliklərinə Gürcüstan - Azərbaycan və Gürcüstan - Türkiyə münasibətlərinə xələl gətirə biləcək "fakt" və "materialların" daxil edilməsinə şərait yaradırlar. Həmin dərslikləri oxuyan şagirdlərin gələcəkdə dövlət adamı, siyasətçi, ictimai xadim, yazıçı, jurnalist, alim və digər peşə sahibi olacaqları nəzərdən qaçırılmasa, bu fəaliyyətin Gürcüstanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin soyuqlaşdırılmasına yönəldiyi aydın olur. Deməli, Gürcüstanda gürcü soyadları ilə dövlət və hakimiyyət qurumlarında işləyən ermənilərin fəaliyyətləri də dövlət üçün təhdiddir.

Erməni "alimləri" bildirirlər ki, guya gürcülər əlifba yaratmaq qüdrətində olmadıqlarından onlar üçün əlifbanı ermənilər hazırlayıblar. Gürcülər mədəniyyət baxımından guya ermənilərdən daim geridə qalıblar, Gürcüstanda yaxşı mədəniyyət abidəsi nə varsa, hamısı ermənilərin "əsəridir". Erməni "tədqiqatçıları" gürcü musiqisi, mahnıları və mətbəxini də "erməniləşdirərək" bildirirlər ki, gürcü incəsənətində və mətbəxində yaxşı nə varsa, onları ermənilər yaradıblar.

Ermənilərdən fərqli olaraq Gürcüstanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar tarixin ən çətin və mürəkkəb zamanlarında gürcülərin yanında olublar, onlarla çiyin-çiyinə düşmənə qarşı döyüşüblər. Bu kömək özünü 1918-1919-cu illərdə Ermənistan - Gürcüstan müharibəsi zamanı bir daha göstərib. Ermənistan ərazi iddialarını təmin etmək məqsədilə Gürcüstana qarşı hərbi təcavüz edib hərbi əməliyyatlara başlayarkən azərbaycanlılar orduya çağırılmamalarına baxmayaraq, silaha sarılaraq gürcülərlə bərabər döyüşüblər.

Azərbaycanlılar Gürcüstanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da eyni fədakarlıqları göstəriblər. Onlar Abxaziyada separatçılara qarşı döyüşlərdə gürcülərlə bir cərgədə yer alıblar. Azərbaycan Respublikası da Gürcüstanı müdafiə edib.

Ermənistan Respublikasından fərqli olaraq Azərbaycan Respublikası daim gürcü xalqının və Gürcüstanın yanında olub, ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini birmənalı olaraq müdafiə edib və edir. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: *"Bütün münaqişələr, o cümlədən Gürcüstan və Azərbaycan ərazilərində baş vermiş münaqişələr ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı çərçivəsində həllini tapmalıdır".*

Azərbaycan Respublikası dövləti və həyata keçirdiyi layihələr Gürcüstanın iqtisadi inkişafının hərəkətverici qüvvəsidir. Gürcüstan da öz növbəsində tranzit ölkə kimi Azərbaycan üçün olduqca vacib tərəfdaşdır. İki ölkə həm də qədim tarixi tellərlə bir-biri ilə sıx bağlıdır. Görkəmli Azərbaycan yazıçısı və diplomatı Yusif Vəzir Çəmənzəminli Gürcüstan - Azərbaycan münasibətləri haqqında yazırdı: "Gürcüstan ilə dostluğumuz ən təbii bir haldır. Şimalda rus qorxusu və cənubda ola biləcək intriqalar gürcülər ilə azərbaycanlıları kip dostluğa məcbur edir. İki müstəqil dövlət üçün də hər işlərinə təcavüz edən qüvvələrə qarşı bir hazırlıq lazımdır. Bu dövlətlər hücum üçün deyil, müdafiə məqsədilə birləşdilər və əqd yapdılar. Bu əqdin sabit qalacağına əminik. İki dövlət arasında olan dostluq yalnız faydaya bağlı olduğunu söyləşmişdik. Gürcüstan - Azərbaycan dostluğunun iki tərəf üçün də böyük faydası var. Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda Gürcüstan üçün bir qorxu baş versə, xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirsə, o birisi də itirmək məcburiyyətində bulunar. Qafqazın dağlarını Qara dənizlə Xəzər dənizi arasında müttəfiqən müdafiə etməliyik. Açıq dənizə yolumuz olmadığı üçün ölkəmizə mal ixrac və idxalını Gürcüstan təriqi ilə edəcəyik. Dost bir dövlət bizə bu yolda maneələr təşkil etməyəcək və ya ağır şərtlər qoymayacaq".

*Beləliklə, Gürcüstanın dövlət müstəqilliyi üçün başlıca təhdid Ermənistan Respublikasının təsiri altında olan erməni diasporu, təşkilatları və icmasının antigürcü fəaliyyətlərindən doğur. Həmin təşkilatların və erməni "tədqiqatçılarının" fəaliyyəti Gürcüstan dövlətinin altına qoyulmuş gec partlayan bombadır. Gürcüstan dövləti zamanında təsirli tədbirlər almazsa və gürcü xalqının müqaviməti olmazsa, bir neçə ildən sonra Gürcüstan daha böyük problemlərlə və qanlı hadisələrlə üz-üzə qala bilər. Heç əbəs deyildir ki, gürcü müəllifi Ş.Cavaxaşvili ermənilərin fəaliyyətlərinə münasibət bildirərək yazırdı ki, milli hisslərin təhqir olunması yolverilməzdir. Tarix bizə öyrədir ki, milli hisslərin təhqir olunması çox vaxt hərbi əməliyyatlara gətirib çıxarır ki, bunlar da qan tökülməsinə, insan tələfatına və maddi dəyərlərin məhvinə səbəb olur. Tarixi təcrübə və müasir reallıqlar göstərir ki, ilk əlverişli imkan düşən kimi ermənilər və Ermənistan gürcü xalqına və Gürcüstana arxadan zərbə endirəcəkdir...*

**Musa QASIMLI,**
**Milli Məclisin deputatı,**
**AMEA-nın müxbir üzvü**

# Biz birlikdə güclüyük!

# Mübarizə öz bəhrəsini verir

## Əldə olunmuş uğurlu nəticələr karantin rejiminin yumşaldılmasını labüd edib

*Əvvəli 1-ci səh.*

Tez-tez eşidirəm ki, peyvənd pandemiyanı sonlandıracaq Təbii ki, bu, belə deyil. Peyvəndin bütün əhali qruplarına kömək edib-etməyəcəyini də bilmirik. Hazırda üzərində işlənən peyvəndlərin bir qrup üçün kömək edəcəyi, digər qrup üçün isə effektiv ola bilməyəcəyi barədə bəzi siqnallar alırıq. Fərqli peyvəndlər sifariş etməli olsaq, bu, sadəcə texniki-maddi baxımdan bir kabus olacaq. Pandemiyanın sonu bir cəmiyyət olaraq bu pandemiya ilə necə yaşamağı öyrənəcəyimiz andır. Bu, bizə bağlıdır və düşünürəm ki, çox müsbət bir mesajdır".



### İkinci dalğa elan olundu

Onu da bildirək ki, tibbi ekspertlərin proqnozlaşdırdığı kimi, sentyabr ayından bir çox ölkələrdə koronavirusa yoluxanların sayında kəskin artım müşahidə olunmaqdadır. Bu səbəbdən də bəzi ölkələrdə yenidən karantin sərtləşdirilir, məhdudiyyətlər tətbiq edilməyə başlanır. İsrail hökuməti koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün sərt karantin rejiminin bərpasına qərar verib. Sentyabrın 19-dan etibarən üç həftə müddətinə ölkədə hərəkət məhdudiyyəti tətbiq olunacaq, sakinlərin evlərindən 500 metrdən çox uzaqlaşmasına icazə verilməyəcək. Bu müddət ərzində tədris müəssisələri, eləcə də hotel, restoran, kafe, ofislər, idman salonları və hovuzlar bağlı qalacaq. Mütəxəssislərin fikrincə, İsraildə koronavirus epidemiyasının ikinci dalğası birincidən daha güclü yayılır. Belə ki, yaz aylarında gündəlik yoluxma min nəfəri keçmirdisə, son günlərdə bu göstərici 4 min nəfəri keçib.

Gürcüstanda pandemiyanın "ikinci dalğası" elan olunub. Baş Nazir Q.Qaxariya bildirib ki, ölkədə epidemioloji vəziyyət gündən-günə pisləşməkdədir.

Avstriyada koronavirus pandemiyasının ikinci dalğası başlayır. Bu barədə ölkə Kansleri Sebastyan Kurts bildirib: "İndi baş verənlər ikinci dalğanın başlanğıcıdır. Xəstələnənlərin sayı günbəgün artır". Kurts əhalini sosial məsafəyə riayət etməyə və tibbi maska taxmağa çağırıb.

Çexiyada COVID-19 diaqnozu ilə xəstəxanalara yerləşdirilən insanların sayı hər gün təqribən 10 nəfər artır. Yoluxanların sayına görə hər 100 min nəfərə nisbətdə hazırda üçüncü olan Çexiya Avropa İttifaqı ölkələri arasında yalnız Fransa və İspaniyadan geridə qalır. Mövcud vəziyyət nəzarət altına alınmazsa, Çexiyanın bu istiqamətdə daha da "irəli gedəcəyi" istisna edilmir. Yoluxanların sayı hələlik faciəli həddə çatmasa da, 2-3 həftədən sonra ölkənin stasionar xəstəxanalarında bu ilin yaz aylarında pandemiyanın ilk dalğası zamanı olan qədər xəstə yerləşdirilə bilər. Çexiya hökumətinin elm və tədqiqatlar məsələləri üzrə səlahiyyətlisi Roman Primula deyib ki, ölkədə mövcud xəstəxana tutumu xəstəliyin ağır simptomlarına yoluxanları xəstəxanaya yerləşdirmək üçün yetərli olmaya bilər.

### Azərbaycanda müsbət dinamika davam edir

Azərbaycanda digər ölkələrlə müqayisədə COVID-19-a yoluxma və ölüm sayı xeyli aşağıdır. Son statistikaya görə, ölkəmizdə koronavirusa yoluxma hallarının 56,1 faizi paytaxtın payına düşür. Həmin göstərici Abşeron rayonunda 15,6, Aran rayonlarında 10,4, Gəncə-Qazax bölgəsində 6,4, Lənkəranda 4,3, Quba-Xaçmazda 2,1, Şəki-Zaqatalada 1,8, Dağlıq Şirvanda 1,6, Yuxarı Qarabağda 1, Naxçıvan Muxtar Respublikasında 0,04 faiz təşkil edir. Ölkə xaricindən idxal olunma halı 0,7 faizdir.

Azərbaycanın COVID-19-la mübarizədə uğurlu fəaliyyəti, qəbul edilmiş qərarların vaxtında və yüksək keyfiyyətlə icrası ölkədə sanitar-epidemioloji vəziyyəti nəzarət altında saxlamağa imkan verib. COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən preventiv tədbirlər nəticəsində, eləcə də əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına daha ciddi və məsuliyyətlə əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində yoluxma hallarının kəskin azalmasına nail olunub. Yoluxmanın dinamikasında müəyyən stabillik yaranıb, sağalanlarla yoluxanlar arasında çox ciddi fərq olmur. Xəstəxanalarda müalicə alan və reanimasiyada olan koronavirus xəstələrinin sayı xeyli azalıb. Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, avqustun 5-dən sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məhdudiyyətlər aradan qaldırılıb və yumşalmalar təmin edilib. İnfeksiyaya yoluxmanın dinamikasında müsbət tendensiyanın müsahidə olunması və iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargah son ay yarım ərzində karantin rejiminin yumşaldılması barədə bir neçə qərar verib. Belə ki, mərhələli şəkildə SMS icazə sistemi ləğv edilib, çimərliklərin, bir sıra istehsal, ticarət və xidmət sahələrinin, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazaların fəaliyyətinə icazə verilib, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb. Ölkə üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 10 nəfərədək qruplarda fərdi tədris və repetitor xidmətlərinə icazə verilib. Sentyabrın 8-dən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla) götürülüb. Həmin tarixdən müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 6 iyul tarixli qərarına uyğun olaraq ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilib.



Nazirlər Kabinetinin sentyabrın 12-də imzaladığı ölkədə tətbiq edilən karantin rejiminin qaydalarına dair Qərarına əsasən, sentyabrın 14-dən Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti bərpa olunub, eləcə də çimərliklərdə ictimai-iaşə obyektlərinin fəaliyyətinə icazə verilib.

Sentyabrın 15-dən isə yumşalma qərarları çərçivəsində ölkə ərazisində təhsil müəssisələri mərhələli şəkildə açılır.

### Yumşalmalar yoluxma sayını artıracaq

Təbii ki, Azərbaycanda koronavirusla mübarizədə əldə olunmuş uğurlu nəticələr, iki aya yaxındır yoluxma sayının stabil qalması, sanitar-epidemioloji vəziyyətin qənaətbəxş olması karantin rejiminin yumşaldılmasını, məhdudiyyətlərin aradan qaldırılmasını labüd edib. Yumşalma addımları elə atılır ki, xəstələrin sayı kəskin artmasın. Xarici ölkələrin təcrübəsi də göstərir ki, xüsusi karantin rejimindən sonra tətbiq olunan yumşalmalar koronavirus infeksiyasına yoluxma hallarının artmasına səbəb olur. Məhz bu səbəbdən sentyabrın 30-dək ölkə üzrə xüsusi karantin rejimi tətbiq edilmiş ərazilərdə tətbiq olunan müəyyən məhdudiyyətlər hələ də qüvvədə saxlanılır.

COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirli və dəyərlidir. Məhz dövlətimizin pandemiya ilə mübarizə çərçivəsində həyata keçirdiyi tədbirlər nəticəsində minlərlə insanın həyatı qorundu, xəstəliyin geniş vüsət almasına, vəziyyətin nəzarətdən çıxmasına imkan verilmədi. Aylardır dövlət tərəfindən aparılan mübarizə öz bəhrəsini verir. Təbii ki, hazırki müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, yumşalma tədbirləri yenə də davam etdiriləcək. Lakin unutmaq olmaz ki, bu məsələdə vətəndaşların məsuliyyəti birinci dərəcəli məsələdir.

Payız-qış mövsümü müxtəlif respirator xəstəliklərin fəallaşdığı dövr hesab olunur. Xeyli fasilədən sonra tədris müəssisələri fəaliyyətə başlayır, əksər müəssisələr qapılarını açır. İstər-istəməz insanlar arasında ünsiyyət artacaq ki, bu da yoluxmaların artmasına səbəb ola və nəticədə karantin yenidən sərtləşdirilə bilər. Bunun baş verməməsi üçün də indiki halda vətəndaşlardan tələb olunan yalnız karantin qaydalarını ciddi şəkildə gözləməkdir. Yumşalmaların tətbiqi, yoluxma sayının azalması koronavirusun tamamilə yox olması anlamına gəlməməlidir. Virus dünyadan tamamilə yox olmadan və ya hamıya peyvənd vurulmadan rahat davranmaq yolverilməzdir. Hazırda tibbi maska taxmaq, gigiyenik qaydalara əməl etmək və sosial məsafə saxlamaq infeksiyadan qorunmağın ən sadə və ən səmərəli yoludur. Hamı bilməlidir ki, peyvənd tapılana qədər koronavirusa yoluxmamağın və sağlam həyata dönməyin yeganə yolu həmin qaydalara uyğun yaşamaqdan, özümüzü və ətrafdakıları bu bəşəri bəlanın fəsadlarından qorumaqdan ibarətdir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Çin növbəti dəfə Avropaya yüklərin daşınmasında trans-Xəzər marşrutunu seçdi

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, bu marşrutla yüklərin daşınması ənənəvi marşrutlarla müqayisədə daha tez reallaşacaq. İlkin mərhələdə marşrut üzrə 1-2 qatarın yola salınması nəzərdə tutulsa da, gələcəkdə qatarların sayının daha artıq olması proqnozlaşdırılıb. Onu da bildirək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yüklərin Çindən Avropaya və əks istiqamətə daşınması həyata keçirilir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin nəhəng layihəsi olan "Bir kəmər, bir yol" təşəbbüsünün icrasında əhəmiyyətli rol oynayır.

Vaxtında görülən işlər sayəsində ölkəmiz hazırda dünyanın mühüm nəqliyyat dəhlizinin - Şərq-Qərb, Şimal-Cənub marşrutu üzrə önəmli qovşağına çevrilib. Yəni bu istiqamətdə gedən bütün yollar Azərbaycanda birləşir.

Prezident İlham Əliyev bu sahədə həyata keçirilən işləri yüksək qiymətləndirərək bildirmişdir: "Bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Eyni zamanda biz "Şimal-Cənub nəqliyyat dəhlizi"nə də çox böyük diqqət yetirmişik... Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir".

Məlumdur ki, Çin hazırda dünyanın nəhəng ixracatçılarındandır. Bu ölkə dünya bazarına ildə 2 trilyon 400 milyard dollar dəyərində məhsul çıxarır və bu səbəbdən yeni nəqliyyat marşrutlarının yaradılması barədə təşəbbüslə çıxış edib. Çinin Avropa ilə mal mübadiləsinin əsas marşrutlarından biri isə "Şərq-Qərb nəqliyyat dəhlizi"dir ki, bu sahədə də ölkəmiz mühüm rol oynayır.

İndi dünya ölkələri həmin marşrut üstündə qızğın siyasi və iqtisadi mübarizəyə başlayıb. Çünki bu yüklərin daşınması hansı ölkədən keçərsə, həmin dövlətlər milyardlarla dollar gəlir əldə edəcək. Prezident İlham Əliyev isə uzaqgörənliklə bu marşrut üçün vaxtında lazımi tədbirlər görüb. Belə ki, bizim nəhəng Xəzər Dəniz Donanmamız var. Donanmanın tərkibində Xəzərin şərq sahilindən qərb sahilinə yük daşımaq üçün bərə gəmilərimiz kifayət qədərdir. İkincisi, Ələt Beynəlxalq Ticarət Limanında nəhəng gəmilərin yan alaraq yükünü doldurub-boşaltmaq üçün hər cür şərait yaradılıb. Üçüncüsü isə, bu yüklərin Avropaya daşınması üçün Bakı-Tbilisi-Qars dəmir yolu çəkilib. Bu yolun da çəkilməsinin təşəbbüsçüsü Prezident İlham Əliyevdir. Üstəlik, maliyyələşdirilməsini Azərbaycan dövləti həyata keçirib.

Ölkələr arasında gedən rəqabətdə siyasi amillər deyil, iqtisadi amillər əsas rol oynayacaq. Bu səbəbdən ölkəmizin həmin rəqabətdən üstün çıxacağına şübhə etmirik. Belə ki, Çinlə Türkiyə arasında yükdaşımaların müddəti bir aydan 12 günə enib. Sözsüz ki, daşınmanın belə qısalmasında Azərbaycanın vaxtında icra etdiyi nəhəng infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində ölkəmiz Şərqlə Qərb, Şimalla Cənub nəqliyyat dəhlizinin qovşağına çevrilib. Ölkəmiz mühüm infrastruktur layihələrini rəqiblərimizdən öncə yaratdığı üçün böyük üstünlüyə sahibdir. Təkcə Bakı-Tbilisi-Qars dəmir yolu dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edib.

Dövlət başçısı ölkəmizdə həyata keçirilən iri tranzit layihələrini yüksək dəyərləndirərək demişdir: "Bütün bu layihələr arasında Bakı-Tbilisi-Qars dəmir yolunu mən xüsusi vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə, doğrudan da, strateji obyektdir, strateji infrastrukturdur... Eyni zamanda biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, "Şimal-Cənub nəqliyyat dəhlizi"ndə də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yeni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilib. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımaların həcmi artacaq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından 151 nəfər sağalıb, 141 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 151 nəfər müalicə olunaraq sağalıb, 141 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 658 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 149 nəfər müalicə olunaraq sağalıb, 569 nəfər vəfat edib. Aktiv xəstə sayı 1940 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 27 min 685 test aparılıb. Dünənki test sayı isə 7656-dır.




# Gəncə Dövlət Universiteti yeni dərs ilinə uğurlu göstəricilərlə başladı

Gəncə Dövlət Universiteti 2020-2021-ci tədris ilinə Nazirlər Kabineti yanında Operativ Qərargahın qarşıya qoyduğu tələblərə uyğun olaraq başladı.

Pandemiya ilə bağlı yeni tədris ili böyük təntənə ilə qeyd edilmədi. Lakin buna baxmayaraq, sentyabrın 15-də universitetdə xüsusi canlanma hiss olunurdu. Bunun da əsas səbəbi ali təhsil müəssisəsində bir sıra yenidənqurma işlərinin aparılması idi. Belə ki, universitetin korpuslarında təmir işləri görülmüş, texnika və avadanlıqlar təzələnmişdir. Bundan başqa, uzun illərdən bəri istismara yararsız vəziyyətdə olan tələbə yataqxanaları əsaslı şəkildə təmir edilmiş və gənclərin rahatlığı üçün hər bir şərait yaradılmışdır.



Qeyd edək ki, yeni dərs ilinin başlanması ilə əlaqədar universitetin tədris binalarında dezinfeksiya işləri də aparılmış, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qarşıya qoyduğu qaydalara əməl etmək üçün pedaqoji kollektivin hər bir üzvünə nəzarət gücləndirilmişdir.

Məlum olduğu kimi, pandemiya başlayan gündən digər təhsil ocaqları kimi Gəncə Dövlət Universitetində də təhsil onlayn sistemində keçilmişdir. Belə ki, tədrisin məsafədən təşkili istiqamətində yarana biləcək çətinliklərin qarşısını almaq məqsədilə bütün fakültələrdə professor-müəllim heyəti üçün "Microsoft Teams" platformasından istifadəyə dair onlayn formada təlimlər təşkil olunmuşdur. Tələbə heyəti üçün platformadan istifadə üzrə təlimatlar hazırlanmış, onlayn dərslərin texniki təminatı daha da təkmilləşdirilmişdir. Məsafədən təhsilin keyfiyyətli təşkili üçün lazımi şərait yaradılmışdır.

Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, universitetin beynəlxalq layihələrdə iştirakı, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, ikili diplom proqramlarının miqyasının genişləndirilməsi istiqamətində də bir sıra xarici ali təhsil müəssisələri ilə danışıqlar aparılıb.

Söz yox ki, bütün bunlar yeni tədris ilində tələbələrin peşəkar mütəxəssis kimi formalaşmasında, elmin sirlərinə yiyələnməsində mühüm rol oynayacaqdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Tərtər rayonuna iki yeni təcili tibbi yardım avtomobili verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə gətirilən yeni təcili tibbi yardım avtomobillərindən ikisi Tərtər rayonuna verilib.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, Türkiyədə istehsal olunan "Fiat Doblo Maxi XL" markalı avtomobillərə baxış keçirilib. Bildirilib ki, Azərbaycanda əhalinin sağlamlığına diqqətlə yanaşılır. Hər il respublikamızın bölgələrində yeni tibb müəssisələri tikilir və ya əsaslı təmir olunur. Səhiyyə sahəsinin maddi-texniki bazası yaxşılaşdırılır, müasir avadanlıqlarla təmin edilir. Prezident İlham Əliyevin tapşırığı ilə qabaqcıl şirkətlərin istehsalı olan ən müasir tibb avadanlığı ilə təchiz edilən təcili tibbi yardım avtomobillərinin ölkəmizə gətirilməsi hazırkı dövrdə, pandemiya ilə mübarizə aparılan bir şəraitdə çox mühüm rol oynayır. Bu, Azərbaycan dövlətinin vətəndaşlarının sağlamlığına nə dərəcədə həssas yanaşdığının göstəricisidir.

Yeni "Fiat Doblo Maxi XL" markalı təcili tibbi yardım avtomobilinin gətirilməsi ilə əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardımın keyfiyyəti və səmərəliliyi daha da artırılacaq.

# Koronavirusla mübarizədə iştirak edən tibb və qeyri-tibb işçilərinə iyul ayı üzrə iş vaxtına mütənasib 20 milyon manat müddətli əlavə ödənilib

**Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarına uyğun olaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən 12756 nəfər tibb işçisinə, 3049 nəfər qeyri-tibb işçisinə iyul ayı üzrə iş vaxtına mütənasib olaraq müddətli əlavə ödənilib.**

Dövlət agentliyindən AZƏRTAC-a bildirilib ki, Bakı şəhəri üzrə 21, respublikanın digər şəhər və rayonları üzrə 70 dövlət tibb müəssisəsinin tibb və qeyri-tibb işçilərinə iyul ayı üzrə iş vaxtına/saatına mütənasib olaraq 20 milyon manat müddətli əlavə ödənilib. Nazirlər Kabinetinin Qərarına uyğun olaraq, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına iş vaxtına mütənasib olaraq müddətli əlavələr aşağıdakı qaydada ödənilib:

1. Tibbi profilaktik tədbirləri həyata keçirən 2676 nəfər tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində cəmi 2.3 milyon manat ödənilib.

Ay ərzində iş günlərinə/saatlarına mütənasib hesablama düsturu: müddətli əlavə = (Vahid Tarif Cədvəli üzrə tarif maaşı / aylıq iş günlərinin sayı və ya iş saatları) x işçinin çalışdığı günlərin sayı x müddətli əlavənin misli.

Agentliyin Maliyyə departamentinin rəhbəri Rasim Həsənov aşağıdakı nümunə ilə hesablamanı izah edir: "Xəstəxanada çalışan həkim laborantın 11-ci dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 375 manatdır. Həkim laborant koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 10 gün işə cəlb olunubsa, deməli, 432 manat 69 qəpik müddətli əlavə almalıdır. 432.69 = ((375 / 26) x 10)x 3. Qeyd edim ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

2. Təcili tibbi yardım xidməti göstərən 3911 nəfər tibb işçisinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan 374 nəfər laboratoriya işçisinə aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində cəmi 6.2 milyon manat ödənilib.

R.Həsənov aşağıdakı nümunə ilə hesablama qaydasını izah edir: "Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan təcili tibbi yardım həkiminin 15-ci dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 440 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 120 saat işə cəlb olunubsa, deməli, 1353 manat 85 qəpik müddətli əlavə almalıdır. 1353.85 = ((440 / 156) x 120) x 4. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

3. Pasiyentlərə stasionar tibbi xidmət göstərən 5795 nəfər tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində cəmi 8.9 milyon manat ödənilib. Maliyyə departamentinin rəhbərinin izahı: "Xəstəxanada çalışan həkimin 15-ci dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 440 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 10 gün işə cəlb olunubsa, deməli, 846 manat 15 qəpik müddətli əlavə almalıdır. 846.15 = ((440 / 26) x 10) x 5. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

Onu da qeyd edək ki, 3049 nəfər qeyri-tibb işçisinə 3-5 misli məbləğində 2.6 milyon manat müddətli əlavə verilib. Nümunə: Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan xadimənin 3-cü dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 271 manatdır. 5 günlük iş həftəsində çalışan xadimə koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 10 gün işə cəlb olunubsa, deməli, 312 manat 69 qəpik müddətli əlavə almalıdır. 312.69 = ((271 / 26) x 10) x 3. Yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq.

Məlumat üçün bildirək ki, dövlət tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq agentlik tərəfindən avqust ayı üzrə də müddətli əlavələrin ödənilməsinə başlanılıb.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC-nin orta və uzunmüddətli korporativ strategiyası hazırlanıb

**Əlvan metal filizlərin hasilatı sektorunun dayanıqlı inkişafının təmin edilməsi məqsədi ilə “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən 2025-ci (ortamüddətli) və 2035-ci (uzunmüddətli) korporativ strategiyası hazırlanıb.**



“AzerGold” QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ötən ildən etibarən nüfuzlu beynəlxalq məsləhətçi şirkətin iştirakı ilə başlanan proses çərçivəsində sənayedə əsas tendensiyaların müəyyən edilməsi, dövlətin maraq və hədəfləri nəzərə alınmaqla cəmiyyətin icra edəcəyi fəaliyyətə dair əsas maliyyə və əməliyyat göstəricilərinin proqnozlaşdırılması, strateji variantların prioritetləşdirilməsi və strategiya sənədinin icrası üzrə yol xəritəsinin tərtib edilməsi kimi işlər aparılıb. Nəticədə strategiya sənədi 14 sentyabr 2020-ci il tarixdə cəmiyyətin Ümumi Yığıncağı qismində İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilib.

Bu strategiyanı həyata keçirməklə cəmiyyətin 2035-ci ilədək regional miqyasda irihəcmli dağ-mədən şirkətə çevrilməsi əsas strateji baxış olaraq müəyyən edilib. Cəmiyyətin strateji hədəflərinə ən böyük qeyri-neft sənaye şirkətlərindən və işə götürənlərdən birinə çevrilməsi, mədən sahəsində bölgənin ən böyük şirkətləri sırasında qərarlaşması, strateji proqramların icrası üzrə maliyyələşmədə dövlət büdcəsindən asılılığın aradan qaldırılması, habelə dağ-mədən sənayesinin yan sahələrinin və zərgərlik sənayesinin innovativ tətbiqlərlə inkişaf etdirilməsinə töhfələrin verilməsi və əsas bazar Azərbaycan olmaqla qonşu ölkələrə genişlənmə potensialının inkişaf etdirilməsi daxildir.

Qeyd olunan məqsədlərə nail olmaq üçün hazırlanan orta və uzunmüddətli yol xəritəsi çərçivəsində strateji proqramlar müəyyən edilib. Bu proqramlar qızıl, mis-sink mədənlərinin, sənayenin yan sahələrinin inkişafı, beynəlxalq bazarlarda genişlənmə hədəflərini əhatə edir. Strategiya sənədinin icrası qeyri-neft sənayesinin dinamik inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi, dağ-mədən sahəsində əlavə dəyərin, eləcə də məşğulluğun artırılması və nəticədə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına mühüm töhfələr verəcək. Cəmiyyətin korporativ strategiyası çərçivəsində müəyyən edilmiş layihələrin icrası ilə 2035-ci ilədək ölkənin məcmu ÜDM-nə 8,9 milyard dollaradək həcmində töhfənin verilməsi, cəmiyyətin səhmdarı olan dövlətə dividendlərin ödənilməsi, habelə layihələrin icrasının ən fəal mərhələsində 14 min nəfərə qədər işçinin cəlb edilməsi proqnozlaşdırılır.

Eyni zamanda layihələrin icrası ilə cəmiyyətin gəlirlərinin proqnozlaşdırılmış məcmu illik artım dərəcəsi 14 faiz həcminə hədəflənir. 2009-2019-cu illərdə qlobal mədən sənayesinin MİAD-ı (Məcmu İllik Artım Dərəcəsi) 9 faiz olmuşdur.

